21 oktyabr 2022 №78 (1951)

www.medeniyyet.az

# MƏDƏNİYYƏT

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin nəşri

Qəzet 1991-ci ilin yanvarından çıxır

## Gördüyümüz işlər birliyimizin nəticələridir

Oktyabrın 20-də işğaldan qurtuluşunun ikinci ildönümü tamam olan Zəngilanda təkcə bu bölgəmizin deyil, ümumilikdə Azərbaycanın inkişafı, eləcə də yerləşdiyimiz coğrafiyanın gələcək mənzərəsi üçün müstəsna önəm kəsb edən Azərbaycan-Türkiyə birlik və bərabərliyi üçün əlamətdar olan hadisələr gerçəkləşib.



Şərqi Zəngəzurun hava qapısı olan Zəngilan Beynəlxalq Hava Limanı Azərbaycan və Türkiyə prezidentləri İlham Əliyev və Rəcəb Tayyib Ərdoğanın iştirakı ilə istifadəyə verilib.

Prezidentlər hava limanının rəmzi açılışını bildirən lenti kəsiblər. Zəngilan Beynəlxalq Hava Limanının rəmzi açarları prezidentlərə təqdim edilib.

Dövlət başçıları hava limanında yaradılan şəraitlə tanış olublar. "Azərbaycan Hava Yolları" QSC-nin prezidenti Cahangir Əsgərov Azərbaycan və Türkiyə prezidentlərinə hava limanı barədə məlumat verib.

Bildirilib ki, Zəngilan Beynəlxalq Hava Limanının asfalt-beton örtüklü uçuş-enmə zolağının uzunluğu 3 min metr, eni isə 60 metr təşkil edir. Hava limanı bütün növ təyyarələri, o cümlədən genişgövdəli ağır yük təyyarələrini qəbul edəcək. Uçuşların təhlükəsizliyinin təmin edilməsi üçün ICAO-nun beynəlxalq tələblərinə uyğun olaraq müasir aeronaviqasiya dəstək sistemləri tətbiq edilib.

Qeyd edək ki, Zəngilan Beynəlxalq Hava Limanı Qarabağın mühüm nəqliyyat qovşağına çevrilməsini şərtləndirən əsas obyektlərdəndir. Həmçinin bu hava limanı Zəngəzur dəhlizinin hava nəqliyyatı infrastrukturu ilə gücləndirilməsi baxımından strateji əhəmiyyət kəsb edir. Görülən işlərin sürəti buranın beynəlxalq nəqliyyat-logistika mərkəzinə çevriləcəyi günü yaxınlaşdırmaqdadır.

Zəngilan Beynəlxalq Hava Limanı 2021-ci ildə açılan Füzuli hava limanından sonra işğaldan azad olunan ərazilərdə istifadəyə verilən beynəlxalq statuslu ikinci aeroportdur. Üçüncü hava limanı Laçın rayonu ərazisində inşa olunur.

***

Azərbaycan Prezidenti İlham Əliyev və Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Zəngilan rayonunda "Dost Aqropark" ağıllı kənd təsərrüfatı kompleksinin birinci mərhələsinin açılışında iştirak ediblər. Xatırladaq ki, kompleksin təməli 2021-ci ilin oktyabrında iki prezidentin iştirakı ilə qoyulub.

Dövlət başçılarına məlumat verilib ki, layihənin birinci mərhələsində inzibati binalar, 5200 kvadratmetrlik qapalı, 113 min kvadratmetrlik açıq tipli heyvandarlıq kompleksləri, sosial obyektlər, kafe, kinoteatr, istirahət zonası, üzgüçülük hovuzu, xidməti heyətin yaşayışı üçün binalar tikilib. Kompleksə 3500 baş cins qaramal gətirilib və əkinçilik məhsullarının istehsalı həyata keçirilib. Prezidentlərin iştirakı ilə ötən il əkin aparılan buğda və arpanın biçini başa çatdırılıb.

İlham Əliyev və Rəcəb Tayyib Ərdoğan "Dost Aqropark"da istehsal olunan ət məhsullarının paketlərinin üzərinə "Made in Karabağ" etiketlərinin ilk nümunələrini vurublar.

Dövlət başçıları "Dost Aqropark"ın nəzdində yaradılan Zəngəzur ağır atletika klubunun açılışında da iştirak ediblər. Türkiyənin və Azərbaycan atletləri, klubun həvəskar idmançıları prezidentlərlə söhbət ediblər.

Sonra konsert proqramı təqdim edilib və kompleks barədə videoçarx nümayiş olunub.

Prezidentlər tədbirdə çıxış ediblər. "Bu gün Zəngilan rayonunun tarixində unudulmaz bir gündür. Qardaş ölkənin sayın Cümhurbaşqanı, qardaşım Rəcəb Tayyib Ərdoğan Zəngilana təşrif buyurub. Bu, bizim üçün böyük bayramdır, bütün Azərbaycan xalqı üçün böyük bayramdır", – deyə İlham Əliyev bildirib.

Dövlət başçısı qeyd edib ki, biz bir il bundan əvvəl burada idik, o zaman bura boş sahə idi: "Burada "Aqropark"ın təməlini qoyduq. Bu gün artıq burada görülən işlərlə tanış olarkən bir daha gördük ki, Türkiyə-Azərbaycan birliyi, dostluğu hər bir sahədə özünü göstərir və hər bir sahədə gözəl nəticələr verir.

Bu gün Zəngilan üçün xüsusi bir gündür. Düz iki il bundan əvvəl oktyabrın 20-də Zəngilan şəhəri şanlı Azərbaycan Ordusu tərəfindən işğalçılardan azad edilmişdir. Zəngilanın 27 illik işğalı sona çatmışdır. Məhz bu gündə Zəngilanda olmağımız, əziz qardaşımla bərabər Zəngilan Hava Limanının və bu "Aqropark"ın açılışını etməyimiz, əlbəttə ki, xüsusi məna daşıyır... Xeyirli olsun, uğurlu olsun!".

Türkiyə Prezidenti də çıxışında vurğulayıb ki, müharibəni görmüş və bu müharibə nəticəsində insanların yaşayışı üçün tamamilə yararsız hala salınmış bu yerlər indi bərəkətli torpaqlara çevrilib: "Gələrkən İlham qardaşımla bu barədə danışdıq, indi qısa vaxtda – iki-iki il yarım ərzində su anbarını da inşa edəcəyik dedi. Bu anbar sayəsində buralar daha bərəkətli torpaqlara çevriləcək... Səhv etmirəmsə, Yunus Əmrə şeirlərinin birində yazırdı ki, Allah bir buğda dənəsindən, bir sünbüldən yüz minlərlə dənə yaradır. İndi burada da bunun bənzərini görəcəyik. Bu sünbüllər, inşallah, dənələrə çevriləcək və buradan Azərbaycana, Türkiyəyə və bütün dünyaya göndəriləcək... İnşallah, bu torpaqların bərəkətli torpaqlar olaraq əbədi qalmasını diləyirəm".

## Cəbrayılda Azərbaycan-Türkiyə tərəfdaşlığının yeni səhifələrinin təməli qoyulub



Oktyabrın 20-də Azərbaycan Prezidenti İlham Əliyev və Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Horadiz-Ağbənd dəmiryolu xəttinin Cəbrayıl rayonundan keçən hissəsində yerləşən Qumlaq stansiyasının təməlini qoyublar.

Dövlət başçılarına layihə barədə məlumat verilib. Bildirilib ki, 2021-ci ildə icrasına başlanılan layihənin 2023-cü ilin sonunda yekunlaşdırılması nəzərdə tutulur. 110,4 kilometr uzunluğunda yol xətti boyunca 9 stansiya (Horadiz, Mərcanlı, Mahmudlu, Soltanlı, Qumlaq, Həkəri, Mincivan, Bartaz, Ağbənd) fəaliyyət göstərəcək. Dövlət başçılarına Ələt-Ağbənd-Naxçıvan-Qars dəmiryolu layihəsi barədə də məlumat verilib.

Prezidentlər daha sonra Cəbrayıl rayonu ərazisində yaradılacaq "Azərbaycan-Türkiyə Beynəlxalq Meşə Təlim Mərkəzi", "Ağıllı Tingçilik" və "Dostluq Meşəsi" Kompleksinin təməlqoyma mərasimində iştirak ediblər. Məlumat verilib ki, hər iki layihə işğaldan azad edilmiş ərazilərdə 2021-ci ildə qəbul edilmiş Azərbaycan-Türkiyə/Qarabağ Tədbirlər Planına uyğun olaraq həyata keçirilir. Bu məqsədlə yerli və türkiyəli mütəxəssislərlə birlikdə Cəbrayıl rayonunun Şükürbəyli-Cəbrayıl-Hadrut yolunun ətrafında 40 hektar ərazi seçilib. Mərasimdə kompleksin ərazisinə 15 baş ceyran buraxılıb.

Oktyabrın 20-də Cəbrayıl şəhərində Türkiyə Prezidentinin rəsmi qarşılanma mərasimi keçirilib. İki ölkənin bayraqlarının dalğalandığı meydanda fəxri qarovul dəstəsi düzülüb.

Azərbaycan Prezidenti İlham Əliyev Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanı qarşılayıb. Fəxri qarovul dəstəsinin rəisi Türkiyə Prezidentinə raport verib. Türkiyə Prezidenti Azərbaycan əsgərlərini salamlayıb.

Azərbaycan nümayəndə heyəti Türkiyə Prezidentinə, Türkiyə nümayəndə heyəti Azərbaycan Prezidentinə təqdim olunub. Türkiyənin və Azərbaycanın Dövlət himnləri səsləndirilib. Fəxri qarovul dəstəsi hərbi marşın sədaları altında prezidentlərin qarşısından keçib.

Qarşılanma mərasimindən sonra dövlət başçılarının təkbətək görüşü olub. Görüş başa çatandan sonra prezidentlər mətbuata birgə bəyanatlarla çıxış ediblər.

Türkiyə Prezidentinin Azərbaycana səfəri oktyabrın 20-də başa çatıb. Qardaş ölkənin rəhbəri Zəngilan aeroportundan vətənə yola düşüb.

## Mədəniyyət naziri Masallıda vətəndaşlarla görüşüb

Azərbaycan Respublikasının mədəniyyət naziri Anar Kərimov oktyabrın 20-də Masallı rayon Heydər Əliyev Mərkəzində Masallı, Cəlilabad və Yardımlı sakinləri, eləcə də digər rayonlardan qəbula gələn vətəndaşlarla görüşüb.

səh. 2

## Azərbaycanın mədəniyyətlərarası dialoqa töhfələri UNESCO-da təsdiq edilib



Xəbər verdiyimiz kimi, 5-19 oktyabr tarixində Parisdə UNESCO-nun İcraiyyə Şurasının 215-ci sessiyası keçirilib. Sessiyanın son günü Azərbaycanın təqdim etdiyi "Bakı Prosesi": Dayanıqlı Sülh və İnkişaf naminə Mədəniyyətlərarası Dialoqun və Sosial İnklüzivliyin Təşviqi" adlı qətnamə yekdilliklə qəbul edilib.

Bununla mədəniyyətlərarası dialoqun beynəlxalq miqyasda təşviqi istiqamətində ölkəmiz tərəfindən görülən davamlı işlər nəticəsində növbəti uğura imza atılıb. Qətnamədə "Bakı Prosesi"nin UNESCO-nun mədəniyyətlərarası dialoq sahəsində əsas proqramlarının məqsədlərinə verdiyi töhfə tanınır, 2008-ci ildən etibarən "Bakı Prosesi" çərçivəsində irəli sürülmüş təşəbbüs və əldə edilmiş nailiyyətlərə istinad edilir, habelə dözümlülük, mədəni müxtəliflik və mədəniyyətlərarası dialoqun təşviqi məqsədilə "Bakı Prosesi"ni dəstəkləməklə bağlı UNESCO Katibliyi, təşkilatın üzv ölkələri və əlaqədar tərəfdaşlara müraciət olunur.

Prezident İlham Əliyevin təşəbbüsü ilə 2008-ci ildə əsası qoyulmuş "Bakı Prosesi" çərçivəsində həyata keçirilmiş tədbirlər nəticəsində Azərbaycan dünyada mədəniyyətlərarası dialoqun ən fəal təbliğatçılarından birinə çevrilib.

davamı səh. 2-də

## Bu əsərlərdə dövrün ab-havası və həqiqətləri əks olunub

Oktyabrın 19-da Azərbaycan Milli İncəsənət Muzeyində Əməkdar incəsənət xadimi , tanınmış rəssam Hafiz Məmmədovun (1921-1995) 100 illik yubileyinə həsr edilən sərginin açılışı oldu.

Mərasimdə çıxış edən mədəniyyət naziri Anar Kərimov diqqətə çatdırdı ki, rəssamlıq sənətimizin inkişafında böyük xidmətləri olan Hafiz Məmmədovun yubileyi pandemiya dövrünə düşdüyündən sərgi bu il təşkil olunur: "Rəssamın Azərbaycan təsviri sənətində qoyduğu iz və sənətinin miqyası onun yaradıcılıq mirasının gənc nəslə təbliğ edilməsi üçün əsas verir. Sərgidə tamaşaçılar təsviri sənətin əksər janrlarında əsərlər yaradan rəssamın irsini daha dərindən tanıyacaqlar. Burada rəssamın Dövlət Rəsm Qalereyası və Milli İncəsənət Muzeyində qorunan əsərləri təqdim edilir. Dövlət Rəsm Qalereyasında qorunan əsərlərin bir qismi bərpa olunaraq sərgiyə çıxarılıb. Bu əsərlərdə sovet dövrünün ab-havası və həqiqətləri əks olunub...".



Qeyd olundu ki, Hafiz Məmmədov bir çox xarici ölkələrdə Azərbaycanı təmsil edib. Rəssamın Misirdə ezamiyyətdə olduğu zaman yaratdığı əsərlər xüsusilə diqqəti çəkir: "Sevindirici haldır ki, rəssamın mirası qorunur, nəsildən-nəslə ötürülür. Bir müddət əvvəl rəssamın qızı, tanınmış rəssam, UNESCO nəzdində Beynəlxalq İncəsənət Assosiasiyası, Beynəlxalq Plastik Sənətlər Assosiasiyası və Bakırköy Rəssamlar Dərnəyinin (İstanbul) üzvü Lətafət Məmmədovanın Müasir İncəsənət Muzeyində sərgisi təşkil edildi, maraqla qarşılandı".

davamı səh. 3-də

## Şövkət Ələkbərovanın doğum günündə məzarı ziyarət edildi

Oktyabrın 20-də görkəmli müğənni, Xalq artisti Şövkət Ələkbərovanın (1922-1993) anadan olmasının 100 illiyi tamam oldu.

Bu münasibətlə Mədəniyyət Nazirliyi və Bakı Şəhər Mədəniyyət Baş İdarəsinin əməkdaşları, incəsənət xadimləri Fəxri xiyabana gələrək Xalq artistinin məzarını ziyarət etdilər, üzərinə çiçəklər düzdülər.




davamı səh. 3-də

## Səhnə fədaisi

XX əsr Tiflis Azərbaycan ədəbi-mədəni mühitində xüsusi xidmətləri olan teatr, sənət xadimlərindən biri də teatr tariximizə görkəmli aktyor və rejissor kimi daxil olmuş Gürcüstanın Xalq artisti İbrahim İsfahanlıdır.

Oktyabrın 19-da Azərbaycan Teatr Xadimləri İttifaqında (ATXİ) sənətkarın anadan olmasının 125 illiyinə həsr olunmuş "Səhnə fədaisi" adlı tədbir keçirildi. Tədbirdə teatr xadimləri, ziyalılar, sənətsevərlər, Tiflis Azərbaycan teatrının müxtəlif nəsillərdən nümayəndələri iştirak edirdilər.

Tədbiri ATXİ-nin sədr müavini, Xalq artisti Hacı İsmayılov açaraq İbrahim İsfahanlının yaradıcılığı, keçdiyi mürəkkəb həyat və sənət yolundan danışdı. Onun ömrünü Tiflis şəhərinə bağlamasına rəğmən daim Azərbaycan milli teatrının ənənələrinə sadiqlik göstərdiyini dedi.

davamı səh. 5-də

### "Rebuild Karabakh" sərgisində mədəni dirçəlişin stendi




səh. 4

### "Gənc tamaşaçılar üçün muzey"

Milli Xalça Muzeyində beynəlxalq konfrans

səh. 3

### "Gitaranın şairi" Bakıda solo konsert verib



səh. 5

№78 (1951)
21 oktyabr 2022
www.medeniyyet.az

# Tarixi yaddaşın və şanlı Zəfərin təcəssümü

## Qubadlı İşğal və Zəfər muzeylərinin təməli qoyulub




Xəbər verildiyi kimi, oktyabrın 19-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Qubadlı şəhərinin Baş planı ilə tanış olub, İşğal və Zəfər muzeyləri kompleksinin təməlini qoyublar.

Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin sədri Anar Quliyev məlumat verib ki, Baş plan bu sahədə böyük təcrübəyə malik İsveçrənin "S.A_Partners" şirkəti və Bakı Dövlət Layihə İnstitutu tərəfindən hazırlanıb.

Qubadlı şəhəri beynəlxalq hava limanlarının tikildiyi Zəngilan və Laçın rayonları arasında yerləşməklə coğrafi mövqeyi və logistik imkanları baxımından strateji əhəmiyyətə malikdir. Şəhər şimal (Kəlbəcər) və cənub (Zəngilan) xidmət, istehsalat şəbəkələrinin bağlantı nöqtəsi olmaqla kənd təsərrüfatı, sənaye sahələrinin birgə inkişaf etdiriləcəyi, innovativ iş yerləri, bağçılıq imkanları üzrə tədris kampusuna malik, eləcə də su mənbələrinə həssas yanaşmaların təşəkkül tapdığı ekoloji dayanıqlı rayon mərkəzi kimi formalaşdırılacaq. Növbəti 20 il ərzində şəhər ərazisinin 505 hektara, əhali sayının isə 14 min nəfərə çatdırılması planlaşdırılır.

Baş planın əsasında insanların yenidən təbiətlə qovuşması, komfortlu qonşuluq ərazilərinin təşkili, canlı rayon mərkəzi və sakit hərəkət strategiyaları dayanır. Qubadlının təbii imkanları nəzərə alınaraq şəhər parkları, meşə-parklar, çaykənarı bulvar, həmçinin ictimai bağlar şəhərin əsas simasını təşkil edəcək. Şəhərin mərkəzi hissəsində evləri, iş yerlərini, istirahət, əyləncə və mədəni fəaliyyəti, sosial obyektləri bir mühitdə cəmləyən əlverişli şəraitin yaradılması planlaşdırılır. Şəhər üzrə tikinti sıxlığı mərkəzdən kənarlara doğru azalacaq. Orta mərtəbəli çoxmənzilli yaşayış binaları və ictimai tikililər mərkəzi hissədə, daha kənarlara doğru isə azmərtəbəli binalar və həyətyanı sahələrə malik fərdi evlər yerləşdiriləcək.

Qubadlı İşğal və Zəfər muzeyləri kompleksi İşğal Muzeyi, Zəfər Muzeyi və dağıntılardan ibarət Memorial Parkdan ibarət olacaq. Kompleks təxminən 3 hektar ərazini əhatə edəcək. Ərazi əsas yol şəbəkəsinə və nəqliyyat qovşağına yaxındır. Həmçinin Həkəri çayını əhatə edən təbii yaşıllıq zolağının bir hissəsi kompleksin ərazisinin şimal hissəsini təşkil edəcək, bu da öz növbəsində kompleksin heyrətamiz təbii mühitdə inşasına imkan yaradacaq. Çayın bir hissəsi kompleksin ərazisindən keçdiyi üçün Zəfər Muzeyi və İşğal Muzeyinin gözəl mənzərəli körpü vasitəsilə simvolik olaraq bir-biri ilə əlaqələndirilməsi nəzərdə tutulur.

Həkəri çayı üzərində Laləzar körpüsü kimi bir çox qədim körpülər və Qubadlı ərazisində aşkarlanan daş qoç fiqurlarında təsvir olunan spiralvarı buynuzlar layihə konsepsiyasının əsas ilham mənbəyini təşkil edir. İşğal Muzeyinin binası kiçik çayın sağ sahilindən yüksələn spiralvarı yoldan başlayır. Bu yol binanın sahəsi boyunca spiral şəklində fırlanır, sonra çayın üzərindən davam edərək gözəl mənzərəli körpüyə çevrilir və çayın sol sahilində Zəfər Muzeyinə birləşərək spiralvarı pilləkəndə tamamlanır.

Qubadlı İşğal Muzeyinin ekspozisiyası müxtəlif audio və vizual texnologiyalardan istifadə etməklə təşkil olunacaq. Muzeydə işğala qədər Qubadlıda əhalinin gündəlik həyatı, şəhərin işğalı və həmin hadisələrin şahidlərinin xatirələri, dağıdılmış irs və işğaldan sonra ərazinin məruz qaldığı vandallıq əyani olaraq nümayiş etdiriləcək. Muzey binasının sonuncu mərtəbəsində isə ziyarətçilərin istirahəti üçün yaşıllıqlardan ibarət terras təşkil olunacaq.

Zəfər Muzeyinin interyeri də dairəvi formada olacaq. Birinci mərtəbədə yerləşən sərgi zalları xalqımızın göstərdiyi qəhrəmanlıq və qazanılan Zəfərə, o cümlədən "Dəmir yumruq" əməliyyatına həsr olunacaq. İkinci mərtəbədə vizual texnologiyalar vasitəsilə Vətən uğrunda canından keçmiş şəhidlərin əziz xatirəsini əbədiləşdirən və qəhrəmanlarımız haqqında məlumatların təqdim olunduğu ekspozisiya yaradılacaq. Həmçinin muzeydə müxtəlif sərgilərin keçirilməsi üçün xüsusi zal fəaliyyət göstərəcək. Buradan ziyarətçilər həm pilləkənlə, həm də lift vasitəsilə üst mərtəbədə yerləşən və müxtəlif mədəni tədbirlərin təşkili üçün nəzərdə tutulan açıq səma altındakı amfiteatra qalxa biləcəklər.

Bu muzey kompleksi Azərbaycan xalqının tarixi ədalətin və öz ərazi bütövlüyünün bərpası uğrunda göstərdiyi döyüş əzmini, misilsiz qəhrəmanlığını, o cümlədən 44 günlük Vətən müharibəsi zamanı qazandığı möhtəşəm Qələbəni indiki və gələcək nəsillərin yaddaşına həkk edərək əbədiləşdirən, haqq səsimizi dünyaya çatdıran təşviqat və informasiya mərkəzi olacaq.

# Azərbaycanın mədəniyyətlərarası dialoqa töhfələri UNESCO-da təsdiq edilib

*əvvəli səh. 1-də*

2010-cu ildən etibarən "Bakı Prosesi" regional təşəbbüsdən qlobal platformaya çevrilməyə başlayıb. 2011-ci ildən Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin təşkilatçılığı, UNESCO, BMT-nin Sivilizasiyalar Alyansı, Avropa Şurası, ICESCO, eləcə də digər beynəlxalq təsisatlarla sıx tərəfdaşlıqda iki ildən bir keçirilən Dünya Mədəniyyətlərarası Dialoq Forumu (DMDF) mədəniyyətlərarası və dinlərarası dialoqun, multikulturalizmin möhkəmləndirilməsi, ölkələr və regionlar arasında dinc birgə yaşayışın təşviq edilməsi, irqi ayrı-seçkiliyə və dözümsüzlüyə qarşı mübarizə kimi mühüm mövzular üzrə önəmli qlobal platforma statusu qazanıb. 2011, 2013, 2015, 2017 və 2019-cu illərdə Bakı beş dəfə Foruma ev sahibliyi edib.

Xatırladaq ki, BMT Baş katibi tərəfindən 2015, 2017 və 2019-cu illərdə qurumun Baş Assambleyasına təqdim edilmiş məruzələrdə "Bakı Prosesi" xüsusi qeyd olunub və Azərbaycanda keçirilən DMDF mədəniyyətlərarası və dinlərarası dialoq sahəsində BMT-nin əsas qlobal platforması elan edilib.

UNESCO İcraiyyə Şurasının qəbul etdiyi qətnamə ölkəmizin beynəlxalq aləmdə artan nüfuzunun göstəricisi olmaqla, sülh, dözümlülük, dialoq və dayanıqlı inkişaf kimi ümumbəşəri ideyaların təbliğində öncül rolunu yenidən vurğulayır və Azərbaycanın bu vacib təşəbbüsünün qlobal əhəmiyyətinin bir daha tanıdılması baxımından əlamətdardır.

# İşğaldan azad edilmiş bütün torpaqlara qaynar həyat qayıdacaq

## Prezident və birinci xanım Cəbrayıl, Qubadlı və Zəngilan rayonlarında olublar

Xəbər verildiyi kimi, Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva oktyabrın 19-da Cəbrayıl, Qubadlı və Zəngilan rayonlarına səfər ediblər.

Dövlət başçısı əvvəlcə Şükürbəyli–Cəbrayıl–Hadrut avtomobil yolunun 14,2 kilometrlik Şükürbəyli–Cəbrayıl hissəsinin açılışında iştirak edib. Məlumat verilib ki, uzunluğu 42 kilometr olan köhnə yol 2,3 kilometr qısaldılaraq 39,7 kilometrlik yeni yolla əvəzlənib. Dördzolaqlı yolun üzərində yerləşən 6 körpünün tikintisi başa çatıb.

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Cəbrayıl rayonu ərazisində yaradılacaq "Azərbaycan-Türkiyə Beynəlxalq Meşə Təlim Mərkəzi", "Ağıllı Tingçilik" və "Dostluq Meşəsi" Kompleksi ilə tanış olublar. Dövlət başçısı və birinci xanım reintroduksiya layihələrinin həyata keçirilməsi çərçivəsində Cəbrayıl rayonu ərazisinə 18 ceyranın buraxılması mərasimində iştirak ediblər.

Ekologiya və təbii sərvətlər naziri Muxtar Babayev kompleksdə görüləcək işlərlə bağlı məlumat verib. Bildirilib ki, Şirvan Milli Parkından götürülən 18 baş ceyran Cəbrayıl rayonu ərazisinə fərdi reintroduksiya olunub. Proses bu il və gələn il də davam etdiriləcək.







Dövlət başçısı Cəbrayıl Elektrik Şəbəkəsinin Rəqəmsal İdarəetmə Mərkəzinin təməlini qoyub, 330/110 kilovoltluq beynəlxalq "Cəbrayıl" Qovşaq Yarımstansiyasında aparılan tikinti işləri ilə tanış olub. "Azərenerji" ASC-nin prezidenti Baba Rzayev məlumat verib ki, 4 ay əvvəl təməli qoyulan yarımstansiyada böyük həcmdə torpaq, tikinti-quraşdırma işləri, 330 və 110 kilovoltluq açıq paylayıcı qurğularda işlərin çox hissəsi yekunlaşıb, eyni zamanda Cəbrayılda 330 kilovoltluq qovşaq yarımstansiyasında işlərin böyük hissəsi görülüb. İkinci mərhələdə Naxçıvanın ölkənin əsas enerji sistemi ilə əlaqələndirilməsi üçün "Cəbrayıl" Qovşaq Yarımstansiyasından Zəngəzur dəhlizini keçməklə muxtar respublikaya 255 kilometr uzunluğunda ikidövrəli elektrik verilişi xətti çəkiləcək və 330 kilovoltluq "Naxçıvan" yarımstansiyası tikiləcək. Üçüncü mərhələdə isə Azərbaycan, Naxçıvan, Türkiyə və Avropa enerji qovşağının yaradılması nəzərdə tutulur.

Daha sonra Qubadlı rayonuna gələn Prezident İlham Əliyev "Bərgüşadçay" və "Zabuxçay" su anbarlarının layihələri ilə tanış olub, Qubadlı Elektrik Şəbəkəsinin Rəqəmsal İdarəetmə Mərkəzinin təməlini qoyub.

Prezidentə və birinci xanıma Qubadlı şəhərinin Baş planı təqdim olunub. Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Qubadlıda İşğal və Zəfər muzeylərinin təməlqoyma mərasimində iştirak ediblər.

Oktyabrın 19-da Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Zəngilan rayonunda da olublar.

Dövlət başçısı və birinci xanım Ağalı kənd orta məktəbinin şagird-müəllim kollektivi və sakinlərlə görüşüb, məktəbdə yaradılan şəraitlə tanış olublar.

Məktəbdə təhsil alan şagirdləri salamlayan İlham Əliyev tezliklə işğaldan azad edilmiş bütün torpaqlara qaynar həyatın qayıdacağını vurğulayıb: "Bir azdan sonra başqa kəndlərdə də evlər tikiləcək, Zəngilan şəhərində də evlər tikiləcək. Ağalı birinci layihədir, siz də azad edilmiş torpaqlara ilk gələn uşaqlarsınız. Şadam ki, böyük həvəslə gəlmisiniz və sizin valideynləriniz də böyük həvəslə gəliblər. Çünki valideynlərin də çoxu yəqin ki, Ağalını heç görməyiblər. Onlar da işğal dövründə dünyaya gəliblər. Amma torpaq çəkir insanı. Sizin burada olmağınız onu göstərir ki, biz azad edilmiş torpaqları tezliklə abadlaşdıracağıq və bu gün hələ də Sumqayıtda, Bakıda, digər rayonlarda yaşayan keçmiş köçkünlər öz dədə-baba torpaqlarına qayıdacaqlar, burada quracaqlar, yaşayacaqlar, uşaqlar böyüdəcəklər".

Dövlət başçısı ölkəmizin gələcəyinin indi böyüməkdə olan nəslin savad, bilik və bacarığından da asılı olacağını bildirib: "Siz də yaxşı oxuyun. Çünki yaxşı oxumaq təkcə sizin üçün yox, ölkəmiz üçün lazımdır. Çünki sizin kimi uşaqlar gələcəkdə ölkəmizi idarə edəcəklər. Ona görə gərək siz bilikli olasınız, savadlı olasınız, həmişə vətənpərvər olasınız. Vətənpərvər olmaq üçün hər bir Azərbaycan vətəndaşının çox böyük haqqı var. Çünki biz bu torpaqlara qan tökərək qayıtmışıq. Bizim qəhrəman şəhidlərimiz öz canlarını fəda ediblər ki, bax, siz və sizin kimi yüz minlərlə azərbaycanlı öz dədə-baba torpağına qayıtsın. Sabah (20 oktyabr – red.) Zəngilan şəhərinin azad olunmasının ikinci ildönümüdür. Zaman tez keçir, ancaq artıq böyük quruculuq işləri görülür. Sizin əsas vəzifəniz oxumaqdır, valideynlərin, müəllimlərin sözünə baxmaqdır və gələcəkdə yaxşı vətəndaş olmaqdır".

Dövlət başçısı və birinci xanım sonra Ağalı kəndinin mərkəzində sakinlərlə səmimi söhbət edib, xatirə şəkilləri çəkdiriblər.

Prezident İlham Əliyev və birinci xanım Zəngilanda Arximed turbini tipli su elektrik stansiyasını işə salıb, Zəngilan Beynəlxalq Hava Limanında yaradılan şəraitlə tanış olub, Zəngilan şəhərində ilk yaşayış binasının və məktəbin təməlqoyma mərasimlərində iştirak ediblər.

# Mədəniyyət naziri Masallıda vətəndaşlarla görüşüb

Azərbaycan Respublikası Prezidentinin tapşırığına uyğun olaraq, mərkəzi icra hakimiyyəti orqanları və digər idarəetmə qurumlarının rəhbərləri tərəfindən bölgələrdə vətəndaşların qəbulu davam edir. Hər ay müxtəlif rayonlarda keçirilən qəbullarda sakinlərin müraciət və problemləri dinlənilir, həlli ilə əlaqədar müvafiq addımlar atılır.

2022-ci ilin oktyabr ayında şəhər və rayonlarda vətəndaşların qəbulu cədvəlinə əsasən, Azərbaycan Respublikasının mədəniyyət naziri Anar Kərimov oktyabrın 20-də Masallı rayon Heydər Əliyev Mərkəzində Masallı, Cəlilabad və Yardımlı sakinləri, eləcə də digər rayonlardan qəbula gələn vətəndaşlarla görüşüb.

Qəbuldan öncə mədəniyyət naziri Anar Kərimov və Masallı Rayon İcra Hakimiyyətinin başçısı Araz Əhmədov ulu öndər Heydər Əliyevin abidəsini ziyarət edib, önünə gül dəstələri qoyublar.

Sonra nazir və icra başçısı Masallı şəhərində Qəhrəmanlar parkını ziyarət edib, Vətən uğrunda canından keçən igid oğulların xatirəsinə ehtiramlarını bildiriblər.

Masallı rayon Heydər Əliyev Mərkəzinə gələn Anar Kərimov mərkəzin fəaliyyəti ilə tanış olub, 2013-cü ildən fəaliyyət göstərən mərkəzdə ulu öndərin həyat və fəaliyyətinin müxtəlif dövrlərini əks etdirən fotolara və müxtəlif eksponatlara baxış keçirib.

Daha sonra rayon Heydər Əliyev Mərkəzində nazirliyin məsul əməkdaşlarının da iştirakı ilə vətəndaşların qəbulu keçirilib.



Qəbulda iştirak edən sakinlərin müraciətləri, əsasən, işlə təmin olunma, iş yerinin dəyişdirilməsi, əmək müqaviləsinin uzadılması, müəssisələrin təmiri, tarixi abidənin bərpası, müəssisəyə ad verilməsi və digər məsələləri əhatə edib.

Anar Kərimov vətəndaşların müraciət və təkliflərini dinləyib, ərizə və şikayətlərinə baxıb. Qaldırılan məsələlərin operativ, hərtərəfli araşdırılması və qanunvericiliyin tələblərinə uyğun həll edilməsi üçün müvafiq tapşırıqlar verilib.

# "Belçikaya komikslərlə səyahət"

Bu il Azərbaycan Respublikası ilə Belçika Krallığı arasında diplomatik münasibətlərin qurulmasının (17 iyun 1992) 30 illiyidir.

Oktyabrın 19-da bu münasibətlə Azərbaycan Milli İncəsənət Muzeyində "Belçikaya komikslərlə səyahət" adlı sərginin açılış mərasimi keçirildi. Sərgi Azərbaycan Milli İncəsənət Muzeyi və Belçika Krallığının Bakıdakı səfirliyinin birgə təşkilatçılığı, Azərbaycan Mədəniyyət Nazirliyi və Belçika Komiks Mərkəzinin tərəfdaşlığı ilə gerçəkləşdi.

Tədbirdə çıxış edən Milli İncəsənət Muzeyi Beynəlxalq əlaqələr şöbəsinin müdiri Könül Rəfiyeva bildirdi ki, sərginin keçirilməsində məqsəd Azərbaycan ictimaiyyətinə Belçikanı kəşf etmək imkanı yaratmaqdır: "Şəhərləri, abidələri, mənzərələri və mədəni ənənələri ilə dünyada məşhur olan Belçika həmçinin sevilən komiksləri ilə də tanınır. Belçika komiksləri komiks tarixində fərqli bir qrup şəklində təmsil olunur və Avropa komikslərinin inkişafında mühüm rol oynayır. 32 paneldən ibarət olan "Belçikaya komikslərlə səyahət" sərgisi çərçivəsində təqdim olunan nümunələrin hər biri ölkənin mədəni irsinin bir hissəsini təbliğ edir. Hər bir panel ziyarətçiyə Belçikada bir şəhər və ya bölgəni kəşf etmək imkanı verir".




Belçika Krallığının ölkəmizdəki səfiri Mişel Pitermans dedi ki, ölkənin illüstratorları və ssenaristləri tərəfindən yaradılan komiks nəşrlər həm cavan, həm yaşlı nəsil tərəfindən sevilir: "Belçika "9-cu incəsənət" ölkəsi olaraq çoxlu komiks nəşrləri, illüstratorlar və ssenaristləri ilə məşhurdur. Sərgidə nümayiş olunan komikslərdə öz möhtəşəmliyi ilə seçilən Flandriya, Valoniya, Brüssel, o cümlədən Arden, Binş və ya Şarlerua şəhərləri istedadlı müəlliflər tərəfindən rəngarəng təsviri vasitələrlə təqdim olunur. Sərgidə klassik albomlardan son nəşrlərə kimi dövrlərin və janrların müxtəlifliyini, həmçinin ölkənin hər üç bölgəsinin zənginliyini görmək mümkündür".

Çıxışlardan sonra qonaqlar sərgi ilə yaxından tanış oldular.

"Belçikaya komikslərlə səyahət" sərgisi noyabrın 14-dək ziyarət üçün açıq olacaq.

**Nurəddin**

# Bu əsərlərdə dövrün ab-havası və həqiqətləri əksini tapıb

## Milli İncəsənət Muzeyində tanınmış rəssam Hafiz Məmmədovun yubiley sərgisi açılıb

əvvəli səh. 1-də

Nazir həmçinin dövlətimizin hər zaman rəssamlara və ümumilikdə sənət adamlarına diqqət və qayğı ilə yanaşdığını dilə gətirdi. Dedi ki, Birinci vitse-prezident Mehriban xanım Əliyeva mədəniyyətimizin hamisi kimi onun həm ölkə daxilində, həm də beynəlxalq aləmdə təbliği istiqamətində çoxsaylı layihələrin reallaşmasına əvəzsiz töhfələr verir.

Tədbirdə çıxış edən Rəssamlar İttifaqının sədri, Xalq rəssamı Fərhad Xəlilov Hafiz Məmmədovla bağlı xatirələrini bölüşdü. Dedi ki, Azərbaycan təsviri sənətində öz yeri olan rəssam çox mədəni, xoşniyyətli bir insan idi: "Onun həyatı o qədər də asan olmamışdı. Rəssamlıq Məktəbini bitirəndən sonra könüllü olaraq müharibəyə getmişdi. Həlim xasiyyətli Hafiz müəllimin iradəsi güclü idi. Müharibədən qayıtdıqdan sonra V.İ.Surikov adına Moskva Dövlət Akademik Rəssamlıq İnstitutunu bitirmişdi. Bir müddət Rəssamlıq Məktəbinin müdiri işləmişdi. Çoxları onu özünə müəllim hesab edirdi.





O, ictimai həyatda da çox fəal iştirak edirdi. Bütün bunlarla bərabər, Hafiz müəllim rəssam kimi əvəzsiz idi. Biz bu gün rəssamın qoyduğu ənənələr davam etsin. O, sağlığında olduğu kimi, bu gün də gənc sənətçilərə örnək olsun" deyə bildirdi. Sərgi münasibətilə bütün qonaqları və ailə üzvlərini təbrik edirəm".

Azərbaycan Dövlət Rəssamlıq Akademiyasının prorektoru, Xalq rəssamı Səlhab Məmmədov, Əməkdar rəssam Eldar Qurbanov Hafiz Məmmədovla bağlı xatirələrini dilə gətirdilər. Rəssamın müəllim kimi xüsusiyyətləri, insani keyfiyyətlərindən danışaraq ehtiramla yad etdilər.

Hafiz Məmmədovun qızı Türkiyədə yaşayan rəssam Lətafət Məmmədova çıxış edərək sərginin təşkilinə görə təşəkkürünü bildirdi. Diqqətə çatdırdı ki, sərgidə ailə arxivindən olan əsərlər də nümayiş olunur. Hafiz Məmmədovun əsas mövzusu həmişə Azərbaycan idi. Bir müddət Misirdə yaşadığı üçün orada yaratdığı əsərlər də sənətində xüsusi bir xətt olaraq keçir. L.Məmmədova qeyd etdi ki, atasının yarımçıq qalan işləri də qorunur. Təsviri sənətə gəlməsində atasının rolunu vurğulayan rəssam bu gün yaratdığı əsərlərdə onun da xəttinin özünü göstərdiyini dedi.

Sonra qonaqlar sərgi ilə tanış oldular.

Qeyd edək ki, 1921-ci ildə Bakının Sabunçu qəsəbəsində anadan olan Hafiz Məmməd oğlu Məmmədov 1941-ci ildə Bakı Rəssamlıq Məktəbini bitirib. 1959-1973-cü illər ərzində Misir, Sudan, Livan, İraq, Suriya, Mərakeş, Tunis, Macarıstan Rumıniya və digər ölkələrdə keçirilən sərgilərdə ölkəmizin rəssamlıq sənətini təbliğ edib. O, uzun illər pedaqoq kimi çoxsaylı gənclərin bu sahədə yetişməsində xidmətlər göstərib. Sərgidə rəssamın məişət janrında işlədiyi "Yay günləri", "Gözləmirdim", "Mixaylonun vətəni Novxanı kəndi", "Doğma yerlər", görkəmli sənətkarların – şair Əliağa Vahid, tarzən Hacı Məmmədov və digərlərinin portretləri nümayiş olunur.

Sərgi noyabrın 3-dək davam edəcək.

**Lalə Azəri**

# Şövkət Ələkbərovanın doğum günündə məzarı ziyarət edildi

əvvəli səh. 1-də

Anım mərasimində çıxış edən mədəniyyət nazirinin birinci müavini Elnur Əliyev Şövkət Ələkbərovanın Azərbaycan musiqi sənəti tarixində rolundan söz açdı. Bildirdi ki, Şövkət xanım məlahətli səsi, özünəməxsus ifa tərzi, Azərbaycan qadınına məxsus gözəllik və nəcibliyi ilə bütün nəsillərin sevdiyi ifaçılardandır: "Şövkət xanımın ifasında "Qarabağ şikəstəsi" çox fərqli idi. Mən düşünürəm ki, hər sənətkar məxsusi zövq yarada bilmir. O, səsləndirdiyi nağmələrə həm də şəxsiyyətinin dəyərlərini ifadə edirdi. Onun səsi hər zaman qulaqlarımızdadır".

Elnur Əliyev dedi ki, Şövkət Ələkbərovanın musiqi mədəniyyətimizə olan sevgisi bir nümunədir. O, eyni zamanda öz müəllimlərinə ehtiramla yanaşır, onların xatirəsini əziz tuturdu: "Hər ifaçı bütün şəxsi keyfiyyətləri ilə ifasına bağlı olmur. Düşünürəm ki, Şövkət xanımın ifa etdiyi mahnılar həm də onun şəxsi keyfiyyətlərinin tərənnümüdür. Bu mahnılarla öz daxili dünyasının dəyər və dərinliklərini ifadə edib. Biz



qürur duyuruq ki, mədəniyyətimiz belə bir sənətkarlar yetişdirib. Arzu edirəm ki, Şövkət xanımın qoyduğu ənənələr davam etsin. O, sağlığında olduğu kimi, bu gün də gənc sənətçilərə örnək olsun".

Nazirin birinci müavini vurğuladı ki, bir sıra mahnılar yalnız Şövkət Ələkbərovanın adı ilə assosiasiya olunur: "Dəfələrlə başqa ifaçılar tərəfindən səslənsə belə, o mahnıların etalonu Şövkət xanımdır. Sənətkarın böyüklüyü də elə budur. Hər mədəniyyətə qismət olmayan bu parlaq ulduzlarımızla fəxr etməli, təbliğatını aparmalıyıq".

Şövkət Ələkbərovanın yetirməsi, Əməkdar artist Aybəniz Haşımova sənətkarla bağlı xatirələrini bölüşdü, 12 yaşında ilk dəfə Şövkət xanımdan sənət dərsi almağa başladığını dedi. Qeyd etdi ki, bu gün öz yetirmələrinə Şövkət xanımın sənət məktəbindən bəhrələndiklərini verməyə çalışır: "30 ilə yaxındır ki, Şövkət Ələkbərova bu dünyada deyil. Lakin biz tələbələri və doğmaları onu heç zaman unutmadıq və hər zaman yanımızda hiss etdik. O, hələ sağlığında öz nəcibliyi, mədəniyyəti, savadı və istedadı ilə hörmət qazanmışdı".

Sonda Şövkət Ələkbərovanın ailə üzvləri adından Tofiq Quliyev adına 12 nömrəli Uşaq musiqi məktəbinin direktoru Gülnarə Səfərova çıxış edərək sənətkarın xatirəsinə göstərilən ehtirama görə təşəkkürünü bildirdi.

Anım mərasimi daha sonra T.Quliyev adına 12 saylı Uşaq musiqi məktəbi və Ş.Ələkbərova adına 20 nömrəli Musiqi məktəbinin birlikdə təşkil etdiyi tədbirlə davam edib.

**Lalə**

# Əlcəzairlə mədəniyyət sahəsində əməkdaşlıq məsələləri müzakirə olunub



Mədəniyyət naziri Anar Kərimov oktyabrın 19-da Əlcəzair Xalq Demokratik Respublikasının Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri Abdeluahab Osmanla görüşüb.

Görüşdə iki ölkə arasında mədəniyyətin müxtəlif sahələrində əməkdaşlıq və gələcək perspektivlər müzakirə olunub. Əməkdaşlığın genişləndirilməsində qarşılıqlı addımların vacibliyi qeyd edilib.

Noyabr ayında Bakıda keçiriləcək Nizami Gəncəvi Beynəlxalq Forumunun əhəmiyyəti haqqında səfirə məlumat verən nazir Əlcəzair nümayəndə heyətini bu tədbirə dəvət edib.

Anar Kərimov vurğulayıb ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən 2008-ci ildə irəli sürülən "Bakı Prosesi", 2011-ci ildən ənənəvi keçirilən Dünya Mədəniyyətlərarası Dialoq Forumu, eləcə də Mədəniyyət Nazirliyi tərəfindən irəli sürülən "Mədəniyyət naminə sülh" (Peace4Culture) beynəlxalq çağırışı uğurlu əməkdaşlıq üçün zəmindir. Bildirib ki, çağırışın əsas məqsədi postmünaqişə dövründə olan ölkələrin işğaldan azad olunmuş ərazilərində mədəni infrastrukturu dirçəltmək, milli-mənəvi dəyərləri yenidən həmin torpaqlara qaytarmaq üçün davamlı sülhə töhfə verməkdən ibarətdir.

Səmimi qəbula görə təşəkkürünü bildirən səfir Abdeluahab Osman birgə əməkdaşlıqdan məmnunluğunu ifadə edib.

Görüş tərəfləri maraqlandıran məsələlərin müzakirəsi ilə davam edib.

# Türk Mədəniyyəti və İrsi Fondu Avropada fəaliyyətini genişləndirmək niyyətindədir

Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondunun prezidenti Günay Əfəndiyeva Polşanın Azərbaycandakı səfiri Rafal Poborski ilə görüşüb.

Görüşdə Türk dünyasının mədəni dəyərlərinin beynəlxalq aləmdə təbliği məqsədilə müxtəlif ölkələrdə layihələr həyata keçirən fondun fəaliyyətindən bəhs edilib.

Günay Əfəndiyeva Polşaya səfərləri, orada yaşayan türk mənşəli xalqların, o cümlədən tatar və karaimlərin mədəni irsinin qorunması, tanıdılması istiqamətində Polşa ilə əməkdaşlıq ələqələrindən söz açıb.

Səfir Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondunun fəaliyyətini yüksək qiymətləndirərək, təşkilat tərəfindən görülən işlərin Avropada maraqla qarşılandığını vurğulayıb.

# "Gənc tamaşaçılar üçün muzey"

## Milli Xalça Muzeyində beynəlxalq konfrans

Azərbaycan Milli Xalça Muzeyində (AMXM) oktyabrın 19-da "Gənc tamaşaçılar üçün muzey" adlı beynəlxalq konfrans başlayıb.

Mədəniyyət nazirinin müavini Sevda Məmmədəliyeva açılış nitqində konfransın beynəlxalq təcrübənin öyrənilməsi, paylaşılması baxımından geniş imkanlar yaratdığını, dünya muzey mütəxəssislərinin əməkdaşlıq əlaqələrini daha da möhkəmləndirdiyini bildirib.

Milli Xalça Muzeyinin direktoru Şirin Məlikova uşaqların muzeylərə cəlb edilməsi, burada onların maraqlarına uyğun mühitin formalaşdırılması məsələlərinin aktuallığını diqqətə çatdırıb, konfransın məqsəd və əhəmiyyətindən danışıb.

Sonra müxtəlif ölkələrdən iştirakçıların çıxışları dinlənilib.

Konfransın birinci günü sessiyalar bitdikdən sonra iştirakçılar Milli Xalça Muzeyinin ekspozisiyası ilə tanış olublar. Sonra qonaqlar muzeyin Ənənəvi texnologiya şöbəsində yeni toxunmuş





"Zəfər" xalçasının ənənələrə uyğun kəsimi mərasimində iştirak ediblər.

Qeyd edək ki, oktyabrın 21-də başa çatacaq konfransda "Muzeylər və məktəblər: muzey pedaqogikasının üfüqləri", "Muzeylərdə uşaqlar üçün rəqəmsal materiallar", "Uşaqlar, yeniyetmələr və valideynlər üçün muzey proqramları", "Uşaqlar və muzey: muzey mühitində dayanıqlı inkişafın perspektivləri", "Uşaq auditoriyasının genişlənməsi və dinamikası: inklüziv layihələr" mövzuları üzrə müzakirələr aparılır. Bu mövzularda Azərbaycan, Almaniya, Bolqarıstan, Çexiya, Hollandiya, Latviya, Qırğızıstan, Özbəkistan, Rusiya, Serbiya və Türkmənistandan ümumilikdə 24 muzey işçisinin çıxışları dinləniləcək.

Konfrans Milli Xalça Muzeyi və Mədəniyyət Nazirliyinin təşkilatçılığı, MDB ölkələri Dövlətlərarası Humanitar Əməkdaşlığı Fondunun dəstəyi ilə keçirilir.

# "İki Yulius"

## Latviyalı rəssamların Azərbaycanın xalça eskizləri əsasında əsərlərinin sərgisi



Oktyabrın 20-də Azərbaycan Milli Xalça Muzeyində "İki Yulius" adlı sərginin açılışı keçirildi.

Sərgi Milli Xalça Muzeyi, Latviyanın Gülbene Bələdiyyəsi Tarix və İncəsənət Muzeyi, bu ölkənin Milli İncəsənət Muzeyi, Gürcüstan İncəsənət Muzeyi – Mədəniyyət Tarixi Muzeyinin birgə təşkilatçılığı, Azərbaycan Mədəniyyət Nazirliyi, Latviyanın Bakıdakı Səfirliyi, Latviya Dövlət Mədəniyyət Kapitalı Fondunun dəstəyi ilə gerçəkləşir.

Azərbaycan Milli Xalça Muzeyinin direktoru Şirin Məlikova bildirdi ki, sərginin adı Latviyanın Gülbene şəhərində anadan olan iki məşhur rəssamın – Yulius Maderniks (1870-1955) və Yulius Straumenin (1874-1970) yaradıcılığına həsr edilən və 2018-ci ildən etibarən hər il bu şəhərdə keçirilən festivalın adından götürülüb. Ötən əsrin birinci yarısında Latviya peşəkar tətbiqi sənətinin və dizaynının əsaslarını qoymuş bu məşhur sənətkarlardan Yulius Straumenin adı Azərbaycan xalçaçılığı ilə də bağlıdır. Qafqaz Kustar Komitəsində Rəssamlıq şöbəsinin müdiri kimi onun tabeliyində bir çox yerdə, o cümlədən Azərbaycan ərazisində emalatxanalar fəaliyyət göstərirdi. O, Qafqazda mütəmadi olaraq etnoqrafik ekspedisiyalar aparır, əksəriyyətini li əl işi nümunələrinin eskizlərini və fotoşəkillərini toplayırdı. Texniki tapşırıq kimi toxuculara paylamaq üçün eskizlərin qrafik kağız üzərində çəkmək ideyası ona məxsusdur. Onun eskizləri, eləcə də Azərbaycan xalçalarının eskizləri xalçaçılıq tarixini özündə qoruyub saxlayan nadir, qiymətli irsdir.

Şirin Məlikova dedi ki, sərgidə Yulius Straumenin Qafqaz və Şərq incəsənətinin, həmçinin "art-deko" üslubunun, milli romantizmin təsirini özündə əks etdirən eskizlərinin reproduksiyaları nümayiş olunacaq. Eskizlərin orijinalları Köhnə Druvyena Məktəb-Muzeyi, Gülbene Bələdiyyəsi Tarix və İncəsənət Muzeyi, Latviya Milli İncəsənət Muzeyi (hər üçü Latviya) və Gürcüstan İncəsənət Muzeyi – Mədəniyyət Tarixi Muzeyində qorunur. Direktor həmçinin qonaqların diqqətinə çatdırdı ki, sərgi çərçivəsində Dekorativ İncəsənət və Dizayn Muzeyinin Latviya toxuculuq kolleksiyasının kuratoru Ruta Rinkanın Latviya tekstilinə dair mühazirəsi keçiriləcək, eyni zamanda Gülbene İncəsənət Məktəbi və Azərbaycan Milli Xalça Muzeyi mütəxəssislərinin xüsusi olaraq bu sərgiyə hazırladığı uşaqlar üçün proqramlar yer alacaq.

Mədəniyyət Nazirliyi Muzey, qalereya və sərgilər şöbəsinin müdiri Nərgiz Abdullayeva sərgi çərçivəsində başlanan beynəlxalq konfransın əhəmiyyətindən danışdı. Diqqətə çatdırdı ki, nazir müavini Sevda Məmmədəliyeva konfransda təqdim olunan məruzələrin bölgə muzeylərində də dinlənilməsini təklif edib.

Latviyanın Azərbaycandakı Səfirliyinin müvəqqəti işlər vəkili Viya Buşa, Gülbene Bələdiyyəsi Tarix və İncəsənət Muzeyinin direktoru Valda Darqais sərginin təşkilinə görə Xalça Muzeyinə təşəkkür etdilər. Diqqətə çatdırıldı ki, Yulius Straume Azərbaycan xalçının rəğbətini qazanıb. O, ömrünün böyük bir hissəsini Azərbaycan xalçalarının çeşnilərini toplamağa həsr edib.

Daha sonra qonaqlar sərgi ilə tanış oldular.

Ekspozisiyanın əsas hissəsini Straume və Maderniksin eskizləri əsasında hazırlanmış müasir tekstil və çini əsərləri təşkil edir. Bunlar "Saxsa" Xalq Tətbiqi Sənəti Studiyasının (Latviya) üzvləri və onun direktoru Biruta Akmentina tərəfindən yaradılmış şərflər, dəsmallar, corab və əlcəklər, rəssam İnes Brantsın (Latviya) naxışlarla bəzədiyi çini qablar, eləcə də Təbriz İslam İncəsənəti Universitetinin professoru Kərim Mirzəyi və onun tələbələri tərəfindən yaradılmış xalça, balış və süfrələrdir.

Sərgi 2023-cü il yanvarın 6-dək davam edəcək.

**L.Azəri**

№78 (1951)
21 oktyabr 2022
www.medeniyyet.az

# Azad torpaqların dirçəliş vizyonu

## "Rebuild Karabakh – 2022" sərgisində Mədəniyyət Nazirliyi də xüsusi stendlə təmsil olunur

19-21 oktyabr tarixində Bakı Ekspo Mərkəzində II Azərbaycan Beynəlxalq "Qarabağın bərpa, yenidənqurma və inkişafı" ("Rebuild Karabakh – 2022"), 27-ci Azərbaycan Beynəlxalq İnşaat ("Baku-Build") və 14-cü Beynəlxalq İstilik, Havalandırma, Kondisionerləşdirilmə, Su Təchizatı, Santexnika və Üzgüçülük Hovuzu ("Aquatherm Baku") sərgilərini bir araya gətirən "Xəzər İnşaat Həftəsi" keçirilir.

"Caspian Event Organisers" (CEO), "Iteca Caspian", "Caspian Event Management", "ICA Eurasia" şirkətlərinin təşkilatçılığı, İqtisadiyyat Nazirliyi, Kiçik və Orta Biznesin İnkişaf Agentliyi (KOBİA), Qarabağ Dirçəliş Fondu və digər qurumların dəstəyi ilə gerçəkləşən "İnşaat həftəsi"nə 17 ölkədən 300-dən çox şirkət qatılıb.

Qeyd edək ki, "Rebuild Karabakh" sərgisi ilk dəfə 2021-ci ilin 20-22 oktyabrında keçirilib.




İşğaldan azad edilmiş ərazilərdə həyata keçirilən bərpa-quruculuq işləri aparıcı biznes dairəsi ilə birgə əməkdaşlığa, dövlət-özəl tərəfdaşlığının, habelə regionda sabitliyin və inkişafın qorunmasına mühüm zəmin yaradır. Bu əsasda artıq ikinci dəfə təşkil edilən, müasir ideyalar, innovativ həllər və səmərəli təşəbbüslərlə zəngin olan "Rebuild Karabakh" sərgisi faydalı işgüzar mühitin yeni modelini yaradacaq.

Bu fikirlər Prezident İlham Əliyevin sərginin iştirakçılarına məktubunda vurğulanır. Dövlət başçısı sərgi çərçivəsində qabaqcıl biznes subyektlərini yaranmış fürsətlərdən faydalanaraq, ərazilərimizin bərpasına dəstək olan bütün səylərini və yaradıcı ideyalarını bir araya gətirməyə çağırıb.

"İnşaat həftəsi"nin "Rebuild Karabakh – 2022" sərgisində Mədəniyyət Nazirliyi də xüsusi stendlə təmsil olunur.

Stenddə Qarabağla, eyni zamanda Zəfər tariximizlə, işğaldan azad olunmuş ərazilərin tarixi, memarlığı, mədəniyyəti ilə bağlı nəşrlər, Azərbaycan, ingilis və rus dillərində nəşr olunmuş "Şuşa – Azərbaycanın mədəniyyət paytaxtı" kataloqu, eləcə də əl işləri və suvenirlər, işğaldan azad edilmiş torpaqlarımıza virtual səyahət etmək üçün xüsusi eynək sərgilənir.

Nazirliyin stendində həmçinin Ağdam İşğal və Zəfər muzeyləri kompleksinin, eləcə də Füzuli Memorial Kompleksi və Zəfər Muzeyinin maketləri nümayiş etdirilir, ziyarətçilərə bu layihələr barədə məlumatlar verilir, müxtəlif nəşrlər, bukletlər və s. təqdim olunur. Stenddəki monitorda işğaldan azad edilmiş rayonlarımızda görülən və görüləcək işlər barədə tanıtım filmləri iştirakçılara nümayiş olunur.

Muğam üçlüyünün – Elbrus Məmmədyarov (tar), Bayram Əliyev (kamança), Aydan Həmzəyeva (xanəndə) ifasında muğam və xalq mahnılarımız da stendin ziyarətçilərinə xoş əhval bəxş edir.

***

Sərgi çərçivəsində KOBİA-nın təşkilatçılığı ilə "Qarabağda biznes və investisiya imkanları" mövzusunda panel müzakirə keçirilib.

Dövlət rəsmilərinin və iş adamlarının iştirakı ilə keçirilmiş tədbirdə işğaldan azad edilmiş ərazilərdə həyata keçirilən bərpa-quruculuq işləri, regionun iqtisadi, investisiya və turizm potensialı, biznes üçün yaratdığı imkanlar barədə müzakirələr aparılıb.

Qarabağ iqtisadi rayonuna daxil olan işğaldan azad edilmiş ərazilərdə (Şuşa rayonu istisna olmaqla) Prezidentin xüsusi nümayəndəsinin müavini Bəşir Hacıyev, KOBİA İdarə Heyəti sədrinin müavini Samir Hümbətov, Aqrar Kredit və İnkişaf Agentliyinin sədri Seymur Mövlayev, İqtisadi Zonaların İnkişafı Agentliyinin İdarə Heyəti sədrinin müavini Elxan Şiriyev, Dövlət Turizm Agentliyinin şöbə müdiri Məhəmməd Muradov və "PMD Group" MMC-nin baş icraçı direktoru Dəyanət Sədullayev mövzu ilə bağlı fikirlərini bölüşüblər.

# Vətənə fəda olanlar unudulmur

Gəncə RMİ Gəncə şəhər MKS-nin 15 saylı kitabxana filialı Vətən müharibəsi şəhidi Nicat Qasımovun doğum günü ilə əlaqədar "Şəhərimizin qəhrəman oğulları" adlı anım tədbiri keçirib.

***



Şəki RMİ Qax rayon Heydər Əliyev Mərkəzində Səhər Manaflının Birinci Qarabağ və Vətən müharibələrində şəhid olan qaxlı oğulların xatirəsinə ithaf edilən "Zəfər tarixinin qəhrəmanları – Qax şəhidləri" kitabının təqdimatı olub. Mərasimdə rayonun icra başçısı Musa Şəkiliyev iştirak edib. Kitabın müəllifi, şəhid bacısı Səhər Manaflı nəşrin ərsəyə gəlməsinə və təqdimatın təşkilinə göstərdiyi dəstəyə görə rayon rəhbərliyinə təşəkkürünü bildirib.

***

Xaçmaz RMİ B.Səfəroğlu adına Quba rayon Mədəniyyət Mərkəzinin Güləzi kənd Folklor klubu, rayon MKS-nin Güləzi və Ağbil kənd kitabxanalarının əməkdaşları Vətən müharibəsi şəhidi Afər Orucovun ailə üzvləri ilə görüşüblər.

Quba rayon MKS-nin Zərdabi qəsəbə kitabxanası və Folklor evinin əməkdaşları bu il 12-14 sentyabr tarixində düşmənin dövlət sərhədində göstərdiyi hərbi təxribat nəticəsində şəhid olan Ümid Həsənovun məzarını və ailəsini ziyarət ediblər.

# Abidə mühafizəçiləri üçün təlim



Mədəniyyət Nazirliyi yanında Mədəni İrsin Qorunması, İnkişafı və Bərpası üzrə Dövlət Xidməti Qəbələ Regional İdarəsinin təşkilatçılığı ilə Şəki şəhər Heydər Əliyev Mərkəzində "İrsin qorunması bacarıqlarının inkişaf etdirilməsi" mövzusunda təlim keçirilib.

Tarix-mədəniyyət abidələrinin bərpası, hüquqi maarifləndirmə, böhran vəziyyətində operativ tədbirlərin görülməsi və digər mövzuları əhatə edən təlimə ölkənin müxtəlif regionlarında çalışan 80-ə yaxın abidə mühafizəçisi qatılıb.

Abidə mühafizəçilərinin bilik və bacarıqlarının artırılması məqsədilə təlimlərin davamlı keçirilməsi nəzərdə tutulur.

# Gəncə teatrında yeni tamaşalar

Gəncə Dövlət Dram Teatrında iki yeni səhnə nümunəsinin məşqlərinə başlanılıb.

Bu il 140 illiyi qeyd edilən mütəfəkkir şair və dramaturq Hüseyn Cavidin "Ana" dramına teatrın baş rejissoru Elşad Əhmədov quruluş verir. Quruluşçu rəssam Mehdi Hüseynovdur. Rolları Əməkdar artist Rahilə Məmmədova, aktyorlar Murad Meyfəliyev, Emil Salmanov, Nailə Əhmədova, Elmir Məmmədov, Məhəmməd Musayev, Əlizamin Abbasov ifa edirlər.

Teatrda həmçinin Azərbaycan uşaq ədəbiyyatının görkəmli nümayəndəsi Abdulla Şaiqin "Danışan gəlincik" musiqili-nağıl tamaşası üzərində yaradıcılıq işinə başlanılıb. Tamaşanın quruluşçu rejissoru Şahmar Məmmədov, quruluşçu rəssamı Mehdi Hüseynovdur.

# Şəki Dövlət Dram Teatrında növbəti premyera



Yeni teatr mövsümünü Vaqif Səmədoğlunun "İntihar" əsərinin tamaşası ilə açan Şəki Dövlət Dram Teatrında bu günlərdə növbəti premyera olub.

Teatrın nəzdində fəaliyyət göstərən studiyanın aktyor kursunda Abdulla Şaiqin "Yazıya pozu yoxdur" pyesi tamaşaya qoyulub. Tamaşanın rejissoru Hüseyn Hüseynli, 2-ci rejissoru və baletmeysteri Elvin Nuridir. Rolları Azad Məmmədov, Hariz Məmmədov, Nərmin Nəbiyeva, Arzu Rəsulova və Nuriyyə Mürşüdova ifa edirlər.

Oktyabrın sonlarında teatrda müasir yazar Xəqani Əliyevin "Çələbi xana Qızılqaya xəyanəti" pyesinin məşqləri başlanacaq.

# Müstəqillik zirvəsi – qüdrətli Azərbaycan

18 Oktyabr – Müstəqilliyin Bərpası Günü münasibətilə bölgələrdəki mədəniyyət müəssisələrində silsilə tədbirlər keçirilib.

Kürdəmir Regional Mədəniyyət İdarəsi (RMİ) Beyləqan rayon Heydər Əliyev Mərkəzində məktəb kollektivlərinin, gənclərin iştirakı ilə "Müstəqillik zirvəsi – müasir qüdrətli Azərbaycan" adlı tədbir keçirilib.



Kürdəmir Rayon Tarix-Diyarşünaslıq Muzeyinin təşkilatçılığı ilə keçirilən tədbirdə Famil Həşimov adına 3 saylı şəhər tam orta məktəbin müəllim və şagirdləri də iştirak ediblər. İmişli rayon Mədəniyyət Mərkəzində isə "Vətən desin" adlı tədbir təşkil edilib. Tədbir konsert proqramı ilə davam edib.

***

Şəki RMİ Şəki şəhər Heydər Əliyev Mərkəzində Mədəniyyət Nazirliyinin Mədəniyyət üzrə Elmi-Metodiki və İxtisasartırma Mərkəzinin təşkilatçılığı ilə Abşeron rayon Xırdalan şəhər 11 illik Uşaq musiqi məktəbinin xalq çalğı alətləri ansamblının ifasında "Kompozisiya" adlı konsert proqramı təşkil edilib.

Zaqatala rayon Heydər Əliyev Mərkəzində "Azərbaycanım mənim" mövzusunda elmi-praktik konfrans keçirilib.

***

Sabirabad RMİ Şirvan şəhər Heydər Əliyev Mərkəzində Müstəqilliyin Bərpası Gününə həsr olunmuş tədbir keçirilib. Şirvan Şəhər İcra Hakimiyyətinin təşkilatçılığı ilə gerçəkləşən tədbirdə Azərbaycanın müstəqillik tarixindən bəhs edən film nümayiş olunub.

Saatlı rayon Mədəniyyət Mərkəzinin Şirinbəyli kənd Folklor evində keçirilən tədbirdə bədii qiraət dərnəyi üzvlərinin ifasında vətənpərvərlik mövzulu şeirlər səsləndirilib.

***

Ağdaş RMİ Göyçay rayon MKS-nin Mərkəzi Kitabxanasında "18 Oktyabr - Müstəqilliyin Bərpası Günü" adlı tədbir təşkil olunub. Çıxış edənlər müstəqilliyimizin qorunub möhkəmləndirilməsində ümummilli lider Heydər Əliyevin misilsiz xidmətlərindən bəhs ediblər. Sonra müstəqilliyimizin bərpasına həsr olunmuş slayd nümayiş etdirilib.

***

Əlamətdar gün münasibətilə Masallı RMİ Masallı rayon Heydər Əliyev Mərkəzi və Gənclərin İnkişaf və Karyera Mərkəzi (GİKM) Masallı nümayəndəliyinin birgə təşkilatçılığı ilə tədbir keçirilib. Heydər Əliyev Mərkəzinin direktoru Dilbər İbayeva, GİKM-in Masallı nümayəndəliyinin direktoru Aynur Tağıyeva və başqaları Azərbaycan xalqının keçdiyi çətin və şərəfli müstəqillik yolundan söz açıblar.

***



Ağstafa RMİ Ağstafa rayon H.Arif adına Uşaq musiqi məktəbində keçirilən tədbirdə şagirdlərin iştirakı ilə hazırlanmış konsert proqramı təqdim olunub.

Tovuz rayon Heydər Əliyev Mərkəzi və GİKM-in Tovuz nümayəndəliyinin birgə təşkilatçılığı ilə "Müstəqilliyimiz əbədidir!" mövzusunda "Xəmsə" milli intellektual oyunu keçirilib. 8 komanda arasından I, II və III yerlər üzrə qaliblərə fəxri fərman və hədiyyələr təqdim edilib.

Qazax Dövlət Rəsm Qalereyasında dərnək üzvlərinin əl işlərindən ibarət "Bütövlüyünü bərpa etmiş xalq" adlı sərgi təşkil olunub.

***



Gəncə RMİ Gəncə şəhər Zərif Qayıbov adına 5 nömrəli Uşaq musiqi məktəbində təşkil olunan tədbirdə xalq çalğı alətləri şöbəsinin müəllim və şagirdləri konsert proqramı ilə çıxış ediblər.

Naftalan şəhər Heydər Əliyev Mərkəzində keçirilən tədbirdə "Ulu öndər" sənədli filmi nümayiş olunub. Goranboy Dövlət Rəsm Qalereyası, rayon Gənclər və İdman İdarəsinin birgə təşkilatçılığı ilə Gənclər parkında "18 Oktyabr Müstəqilliyin Bərpası Günüdür" adlı sərgi keçirilib.

***

Ağcabədi RMİ Ağdam rayon R.Məmmədov adına Döyüş Şöhrəti Muzeyində "Müstəqilliyimiz əbədidir!" adlı tədbir keçirilib. Tədbirdə muzeyin direktoru Sahib Məmmədov, Ağdam Rayon Tarix-Diyarşünaslıq Muzeyinin direktoru Ülvi Qədirov və digərləri çıxış ediblər.

# Mədəniyyət müəssisələrində müxtəlif səpkili tədbirlər



Masallı RMİ Masallı rayon Mərkəzi Kitabxanasında yazıçı-publisist Nurəddin Ədiloğlunun "Qaçaq Mozu" romanının təqdimat və imza günü keçirilib. Mərasimdə çıxış edənlər yazıçının yaradıcılıq məziyyətləri haqqında söz açıb, müəllifin 31-ci kitabı haqqında fikirlərini bölüşüblər. Sonda görüş iştirakçılarına minnətdarlığını bildirən yazıçı onlar üçün kitablarını imzalayıb.

***

Biləsuvar RMİ-nin rəisi Əlisultan Sadıxov Biləsuvar rayon Nihad Babayev adına Xırmandalı kənd Uşaq incəsənət məktəbinin kollektivi ilə görüş keçirib. İdarə rəisi məktəbin xanəndəlik ixtisası üzrə 2-ci sinif şagirdi Cahad Qasımlıya Mədəniyyət Nazirliyinin fəxri fərmanını təqdim edib.

***

Mədəniyyət üzrə Elmi-Metodiki və İxtisasartırma Mərkəzinin (MEMİM) təşkilatçılığı, Abşeron rayon və Xırdalan şəhər 11 illik Uşaq musiqi məktəbləri müəllimlərinin iştirakı ilə Şəki RMİ-nin tabeliyində fəaliyyət göstərən uşaq musiqi məktəblərində tar və kamança müəllimləri üçün ustad dərsləri təşkil olunub. RMİ-nin rəisi Azər Yusubov regionun musiqi məktəbləri üçün önəmli olan ustad dərslərinə görə MEMİM-ə və pedaqoqlara təşəkkürünü bildirib.

***

Xaçmaz RMİ Quba rayon MKS-nin Mərkəzi Kitabxanasının təşkilatçılığı ilə "Xudafərin körpüsü müstəqil Azərbaycanın mənəvi simvoludur" adlı tədbir keçirilib. Çıxışlarda bildirilib ki, 2020-ci ilin 18 oktyabrı tariximizə daha bir şanlı gün kimi yazılıb. Həmin gün Cəbrayıl rayonu ərazisində yerləşən Xudafərin körpüsü üzərində 27 il sonra Azərbaycan bayrağı ucaldıldı.

***



Sabirabad RMİ-nin rəisi Fərid Qurbanzadə, Saatlı Rayon Tarix-Diyarşünaslıq Muzeyinin direktoru Sürəyya Zeynalova və Mədəniyyət Nazirliyi yanında Mədəni İrsin Qorunması, İnkişafı və Bərpası üzrə Dövlət Xidmətinin Saatlı rayonu üzrə abidə mühafizəçisi Əlibala Əliyev Saatlı rayon Cəfərxan kəndində yerləşən Cəfərxan mülkünü ziyarət ediblər. Ziyarət zamanı Cəfərxan mülkünün tarixi, eyni zamanda bu ərazidə fəaliyyət göstərmiş təcrübə stansiyası barədə ətraflı məlumat verilib. Daha sonra Cəfərxan kəndində yerləşən, İkinci Dünya müharibəsi dövründə əsir düşmüş almanların qəbiristanlığı da ziyarət olunub. Qeyd edək ki, Saatlı Rayon Tarix-Diyarşünaslıq Muzeyində Cəfərxan kəndinin tarixinə dair bir sıra sənədlər, fotoşəkillər və s. qorunur.

***

Bərdə RMİ-nin tabeliyində fəaliyyət göstərən Mingəçevir Şəhər Tarix Muzeyində "Azərbaycan xalçaçıları" İctimai Birliyinin



(AXİB) QHT-lərə Dövlət Dəstəyi Agentliyi tərəfindən maliyyələşən "Regionlarda xalça sənətinin inkişafına dəstək" layihəsi üzrə növbəti maarifləndirici tədbir təşkil edilib. AXİB-nin üzvü Nazilə Əbilova xovlu və xovsuz xalçalarımız haqqında məlumat verib, toxu prosesini əyani nümayiş etdirib, iştirakçıların suallarını cavablandırıb.

***

Mədəniyyət Nazirliyinin "Kommunikasiya meneceri" layihəsi çərçivəsində regional idarələrə təyin olunmuş nümayəndələrin işinin təşkili ilə bağlı görüşlər keçirilir. Masallı RMİ kommunikasiya meneceri Ceyhun Bəşirov Masallı Tarix-Diyarşünaslıq Muzeyində tabe müəssisələr üzrə təyin edilmiş əlaqələndirici şəxslərlə görüş keçirib. Kürdəmir RMİ-nin kommunikasiya meneceri Ramil Əhmədov isə Beyləqan rayon Heydər Əliyev Mərkəzində işçi qrupu və müəssisələrin əlaqələndirici əməkdaşları ilə görüşüb.

**Hazırladı: N.Məmmədli**

əvvəli səh. 1-də

# Səhnə fədaisi

## İbrahim İsfahanlının xatirəsi Teatr Xadimləri İttifaqında yad edildi

Bildirdi ki, İbrahim İsfahanlı eyni zamanda teatr təşkilatçısı, sözün əsl mənasında, səhnə fədakarı kimi tanınmışdır. Sənətkarın ifaçılıq xüsusiyyətlərinə və çoxşaxəli yaradıcılığına nəzər salan H.İsmayılov onun zəngin aktyor palitrasına malik olduğunu dedi.

Çıxışın ardınca Azərbaycan Dövlət Akademik Milli Dram Teatrının səhnə ustaları – Xalq artisti Əli Nur, Əməkdar artistlər Aslan Şirin, Elşən Cəbrayılov, aktyor İlyas Əhmədin ifasında "Səhnə fədaisi" adlı kompozisiya göstərildi.

Tamaşaçılar aktyorların təqdimatında İbrahim İsfahanlı ömrünün müxtəlif məqamlarından faktları, xatirə və qeydləri dinlədilər.

Beləcə, qonaqlar İsfahanda doğulmadığı halda o dövrün sənət adamlarına olan təqiblərdən yayınmaq üçün İsfahanlı təxəllüsünə sığınan, milli aktrisaların olmadığı bir dövrdə səhnədə qadın rollarını da məharətlə ifa edən, özünü təkcə aktyor kimi yox, həm də rejissor kimi teatra həsr edən teatr fədaisini yenidən xatırlatmağa çalışdılar.



İbrahim İsfahanlını teatr aləminə gətirən böyük eşq və amallardan söz açıldı. Onun nəinki xüsusi teatr təhsili, hətta ibtidai məktəb təhsili belə olmadığı, ancaq sanki anadan fitri istedada malik aktyor kimi doğulduğu, güclü fəhmlə səhnənin incəliklərini duyaraq, daima çağlayan daxili emosiyalarından bacarıqla istifadə etdiyi vurğulandı. Qeyd olundu ki, o, həyatın ən sərt sınaqları ilə üzləşsə də, mətanəti, iradəsi və ən əsası, alovlu sənət məhəbbəti ilə bütün çətinliklərə sinə gərib. İbrahim İsfahanlının Mirzə Fətəli Axundzadə adına Tiflis Dövlət Azərbaycan Dram Teatrında onlarla əsərə quruluş verdiyi də diqqətə çatdırıldı.

Teatr onun üçün doğma evi olub. O, burada həm rejissorluq, həm də aktyorluq edib. Bir aktyor kimi o, daha çox romantik səpkili qəhrəmanların səhnə təcəssümünə meyl göstərib. Həmişə deyərmiş ki, mənim ən fərəhli günlərim, xoşbəxt çağlarım teatrda keçib. Lakin bu o demək deyildi ki, o, sənətin başqa sahələrində iştirak etməyib. Əksinə, o, həyatının son dövrlərində də böyük bir şövqlə Tbilisidə teatr, musiqi kollektivlərinə rəhbərlik edib, bədii qiraət ustası kimi Azərbaycan və gürcü poeziyasının alovlu təbliğatçılarından biri olub.

Dolğun kompozisiya yerini Əməkdar artistlər Qoçaq Əsgərov, Teymur Əmrah və müğənni İlahə Fədanın klassik estrada və xalq mahnılarından ibarət rəngarəng ifalarına verdi.

Qonaqlar ATXİ-nin foyesində sənətkarın həyat və yaradıcılığının müxtəlif məqamlarını əks etdirən fotosərgi ilə də tanış oldular.

**Həmidə Nizamiqızı**



# "Gitaranın şairi" Bakıda solo konsert verib

## Virtuoz ifaçının ADMİU-da ustad dərsi də olub

Klassik gitara ifaçılığında Rövşən Məmmədquliyevin öz imzası var. Hətta onu "gitaranın şairi" də adlandırırlar. 2014-cü ildən Rusiyada yaşayan musiqiçi bu günlərdə doğma Bakının qonağıdır.

Oktyabrın 18-də Beynəlxalq Muğam Mərkəzində Mədəniyyət Nazirliyinin təşkilatçılığı ilə dünyaşöhrətli gitara ifaçısı, beynəlxalq müsabiqələr laureatı Rövşən Məmmədquliyevin solo konserti keçirildi.

Konsertdən əvvəl jurnalistlərə qısa açıqlama verən ifaçı doğma şəhərində çıxış etməkdən böyük şərəf duyduğunu dedi: "Yenidən Bakıya qayıtdığım üçün çox həyəcanlıyam. Bundan öncə mən 2010-cu ildə filarmoniyanın kamera və orqan musiqisi zalında Teymur Göyçayevin dirijorluq etdiyi orkestrlə birgə çıxış etmişəm. Ancaq Azərbaycanda solo konsertim ilk dəfədir. İnanıram ki, budəfəki repertuar və ifamla tamaşaçıları razı sala biləcəyəm. Azərbaycanda klassik gitara ifaçılığı o qədər də geniş yayılmayıb. Bu konsertdən sonra müəyyən qədər maraq yaranacağına ümid edirəm".

Gələcək planları haqqında suala cavabında ifaçı "Mən çalışıram plan qurmayım, yaradıcılıq özü proqrama yeniliklər gətirir" dedi.

Rövşən Məmmədquliyevin ifasını dinləməyə gələnlər arasında Azərbaycan Bəstəkarlar İttifaqının sədri, Xalq artisti, professor Firəngiz Əlizadəni də görürük. Yaxınlaşıb konsert öncəsi fikirlərini alırıq. Bəstəkar Rövşən Məmmədquliyevin yaradıcılığı ilə çoxdan tanış olduğunu deyir: "Onu tez-tez xarici ölkələrdə qastrol səfərlərində görürəm. Bundan əlavə, Rövşən ustad dərsləri də verir. Hətta bu dərslərin birini izləyərkən peşəkar bir sənətkar olduğunu sezdim və onun mənim "Fantaziya" əsərimi ifa etməsinə razı oldum. Rövşən mənim bu əsərimi ilk dəfə ispaniyalı virtuoz gitaraçı Esteban Koluççinin ifasında eşitmişdi. Əsərin notlarını əldə edəndən sonra "Fantaziya"nı repertuara daxil etmək qərarına gəldi. Əlbəttə ki, bu məni çox sevindirir".

Budur, Rövşən Məmmədquliyev səhnədədir. Biri-birindən maraqlı musiqilərlə zalı ələ alır. Konsert izləyicilər tərəfindən böyük maraqla qarşılanır. İfaçı proqrama Dionisio Aquado, Aqustin Barrios, Eytor Villa-Lobos, Nikita Koşkin, Fikrət Əmirov, Firəngiz Əlizadə, Fransisko Tarreqo kimi bəstəkarların əsərləri daxil etmişdi.

Qeyd edək ki, Rövşən Şahbaz oğlu Məmmədquliyev 1986-cı ildə Bakı şəhərində doğulub. Klassik gitarada ifa etməyi Nijni-Novqorod şəhərindəki 7 nömrəli uşaq incəsənət məktəbində öyrənib. 2004-cü ildə M.A.Balakirev adına Nijni-Novqorod Musiqi Kollecini fərqlənmə diplomu ilə bitirərək M.İ.Qlinka adına Nijni Novqorod Dövlət Konservatoriyasına daxil olub. 2009-cu ildə bu təhsil müəssisəsini də fərqlənmə ilə başa vurub.

Səkkiz ildir Rusiyada yaşayan musiqiçi bir sıra mükafatlara, o cümlədən "Yeni adlar" Beynəlxalq xeyriyyə proqramının təqaüdünə layiq görülüb. Soydaşımız Rusiya, Fransa, Ukrayna, İtaliya, Portuqaliya, Polşa və digər ölkələrdə keçirilmiş müxtəlif müsabiqə və festivallarda müvəffəqiyyət qazanıb.

***

Rövşən Məmmədquliyev Bakıya səfəri çərçivəsində oktyabrın 19-da Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetində ustad dərsi keçib, həvəskar və peşəkar gitara ifaçıları ilə öz bilik və bacarıqlarını bölüşüb.

**Lalə Azəri**

# Hüseyn Cavidin 140 illik yubileyinə həsr olunmuş tədbir

Bakı Şəhər Mədəniyyət Baş İdarəsi Səbail rayon Mərkəzləşdirilmiş Kitabxana Sisteminin (MKS) Mərkəzi Kitabxanası və C.Cabbarlı adına Azərbaycan Dövlət Teatr Muzeyinin təşkilatçılığı ilə oktyabrın 19-da dahi şair, dramaturq Hüseyn Cavidin 140 illik yubileyinə həsr olunmuş tədbir keçirilib.



Tədbirdə Səbail rayon MKS-nin direktoru, Əməkdar mədəniyyət işçisi Nüşabə Ələkbərova, Azərbaycan Dövlət Teatr Muzeyinin direktoru, Əməkdar mədəniyyət işçisi Sevinc Mikayılova, Hüseyn Cavidin Ev-Muzeyinin direktor müavini Lalə Əliyeva, AMEA Nizami adına Ədəbiyyat İnstitutunun aparıcı elmi işçisi, Cavid yaradıcılığının tədqiqatçısı Rasim Nəbioğlu, M.Füzuli adına Əlyazmalar İnstitutunun elmi katibi, filologiya üzrə fəlsəfə doktoru Əzizağa Nəcəfli və başqaları iştirak ediblər.

Tədbirdə Hüseyn Cavidin ədəbiyyatımızın ən parlaq simalarından olduğu, onun sənətinin bütün zamanlar üçün əbədiyaşarlığı vurğulanıb. Şagirdlərin ifasında "İblis" əsərindən parça təqdim olunub.

Sonda Səbail rayon MKS-nin Mərkəzi Kitabxanasının hazırladığı Hüseyn Cavidin əsərlərindən ibarət kitab sərgisi və Azərbaycan Dövlət Teatr Muzeyinin Cavid və teatr mövzusunu əks etdirən fotosərgisi təqdim edilib.

# "Vətən şairi"

## Səməd Vurğunun evində Eldar Baxışın xatirəsi anılıb

Bu il XX əsr Azərbaycan poeziyasının tanınmış simalarından biri, dünyadan vaxtsız köçmüş şair Eldar Baxışın (1947–1996) anadan olmasının 75 illiyidir.

Oktyabrın 15-də Səməd Vurğunun Ev-Muzeyində mərhum şairin yubileyi qeyd edilib. Tədbir çərçivəsində yazıçı Azad Qaradərəlinin Eldar Baxışa həsr etdiyi "Vətən şairi" kitabının təqdimatı olub.

Tədbirdə Xalq şairi Ramiz Rövşən, tarix üzrə fəlsəfə doktoru Hacı Nərimanoğlu, riyaziyyatçı İmanqulu Ağaquluyev və digər çıxış edənlər Eldar Baxışın yaradıcılığından söz açıb, xatirələrini bölüşüblər. Şairin məşhur şeirlərindən parçalar səslədirilib. ADA Universitetinin professoru Nəriman Qasımoğlu, şair Asif Talıboğlu Eldar Baxışa həsr etdikləri şeirləri söyləyiblər.

Azad Qaradərəli yeni çapdan çıxmış "Vətən şairi" kitabının yazılma tarixindən danışıb. Qeyd olunub ki, kitabın elmi redaktoru İstanbul Aydın Universitetinin professoru Kamil Vəli Nərimanoğludur. Kitaba Azad Qaradərəlinin öz dostu haqqında yazdığı esselər, xatirə yazıları, habelə "Qarsıya Lorka və Eldar Baxış", "Sabir Əhmədli və Eldar Baxış", "Vətən şairi" məqalələri daxil edilib.



Müəllif öz imzası ilə kitabı tədbir iştirakçılarına hədiyyə edib.

Tədbirin sonunda şairin oğlu – rejissor, aktyor Tural Baxış xatirə gecəsində iştirak edənlərə və tədbirin təşkilinə görə Səməd Vurğunun Ev-Muzeyinin direktoru Nüşabə Babayeva-Vəkilovaya minnətdarlığını bildirib.

Qeyd edək ki, Eldar Baxış (Eldar Baxış oğlu Ağayev) 1947-ci il iyunun 22-də Qubadlı rayonunun Diləli Müskanlı kəndində doğulub. Şair pyeslər ("Uzun Həsən", "Məlikməmməd") yazıb, rus dilindən bədii tərcümələr də edib. 1996-cı il mayın 22-də dünyasını dəyişib.

# II "4.4" Qısa Tamaşalar Festivalına əsər qəbulu başa çatıb

Mədəniyyət Nazirliyi və "Teatro.az" sənət portalı tərəfindən bu ilin mart ayında elan edilən II "4.4" Qısa Tamaşalar Festivalına səhnə əsərlərinin qəbulu oktyabrın 15-də başa çatıb.

Milli teatr prosesini canlandırmaq, teatr sənətçilərini yeni yaradıcı təşəbbüslərə təşviq etmək məqsədi daşıyan festival 25-30 noyabr tarixində Bakıda keçiriləcək.

"Şuşa İli"nə həsr olunan festivalın proqramı tərtib olunub. Dövlət teatrları və müstəqil teatrlar olmaqla 25 yaradıcı kollektivin təqdim etdiyi tamaşalardan 10 nümunə seçilib.

Qeyd edək ki, müsabiqəyə tamaşalar videoyazı formatında (xronometraj – maksimum 44 dəqiqə) qəbul olunub. Səhnə əsərlərinin janr məhdudiyyəti yoxdur.

Ötən ilin noyabr ayında gerçəkləşən ilk festivaldan fərqli olaraq, bu dəfə festivalda tamaşalar onlayn deyil, canlı təqdim olunacaq. Festival çərçivəsində tamaşa nümayişləri ilə yanaşı, treninq, seminar və panel müzakirələr də təşkil ediləcək.

İlk üç yerin qalibləri peşəkar teatr xadimlərindən ibarət münsiflər heyəti tərəfindən müəyyən ediləcək və mükafatlandırılacaq. Birinci yer üçün 5000, ikinci yer üçün 3000, üçüncü yer üçün 1500 manat mükafat nəzərdə tutulub.

# Yubiley ilində Cavid irsinin təbliği diqqət mərkəzində olacaq

Bu il Azərbaycan ədəbiyyatının görkəmli nümayəndəsi, mütəfəkkir, şair və dramaturq Hüseyn Cavidin (1882-1941) anadan olmasının 140 illiyidir. Prezident İlham Əliyev sentyabrın 24-də şairin 140 illiyinin qeyd olunması haqqında sərəncam imzalayıb.



Ədibin Bakıdakı ev-muzeyi tərəfindən yubiley ilində nə kimi işlər görülüb, hansı layihələr həyata keçiriləcək.

Bu barədə muzeyin baş direktoru, filologiya üzrə elmlər doktoru Gülbəniz Babaxanlı qəzetimizə məlumat verdi: "Son beş ildə Hüseyn Cavidin bir çox əsərlərini 10-dan artıq xarici dilə tərcümə etmişik. İndi Cavidin əsərlərini rus və türk dilləri ilə yanaşı, ingilis, fransız, macar, çex və başqa dillərdə də oxumaq mümkündür. Bu yaxınlarda "Topal Teymur" pyesini ilk dəfə ingilis və rus dillərində hazırlayıb çap etdirdik. Kitabı Türkiyə, ABŞ, Fransa, Rusiya və Almaniyanın kitabxanalarına göndərdik".

Direktor əlamətdar yubileylə bağlı bu ilin əvvəlindən silsilə tədbirlər keçirdiklərini, kitablar nəşr etdirdiklərini dedi. Bildirdi ki, muzey tərəfindən bu ilin əvvəlində "Cavidşünaslıq" çoxcildliyinin son 10 cildi də hazır oldu. Həmçinin Beynəlxalq Türk Akademiyası ilə birlikdə "Eyni amal uğrunda ortaq taleyi bölüşənlər – Əhməd Baytursunlu, Hüseyn Cavid və Əhməd Cavad" mövzusunda beynəlxalq elmi konfrans təşkil edildi. "Şuşa İli" və yubileylə əlaqədar Hüseyn Cavidin "Ana" mənzum pyesi Şuşa Dövlət Musiqili Dram Teatrında yeni quruluşda nümayiş olundu. Məlum olduğu kimi, bu ilin may ayında mədəniyyət naziri Anar Kərimovun ABŞ-a səfəri zamanı Amerika-Azərbaycan Ticarət Palatasının Vaşinqtondakı inzibati binasında Hüseyn Cavidin barelyefinin açılışı keçirilib. Bununla əlaqədar muzey tərəfindən aidiyyəti qurumlara ədibin həyat və yaradıcılığı haqqında informasiya dəstəyi göstərilib. Hazırda həmin barelyefin QR kodu vasitəsilə muzeyin saytına keçid edənlər ədib haqqında Azərbaycan və ingilis dillərində geniş məlumat ala bilirlər.

Bir müddət əvvəl isə "Cavid hikməti – seçilmiş aforizmlər" və rus dilində "Hüseyn Cavid. Seçilmiş pyeslər" kitabları işıq üzü görüb. İkinci kitab muzeylə Beynəlxalq Türk Akademiyası tərəfindən ərsəyə gətirilib.

Gülbəniz Babaxanlı muzey tərəfindən ilin sonunadək yubiley münasibətilə müxtəlif layihələrin həyata keçiriləcəyini diqqətə çatdırdı. Dedi ki, AMEA-nın Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu ilə birgə "Hüseyn Cavid sənəti: ideallar və müasir dövr" adlı beynəlxalq elmi-nəzəri konfrans keçirməyi planlaşdırırıq. Bundan başqa, "Hüseyn Cavid və sənəti", "Hüseyn Cavidin fəlsəfi irsinin tədqiqi", "Hüseyn Cavidin linqvopoetikası" monoqrafiyaları, muzeyin izahlı kataloqu, "Hüseyn Cavid: həyat və sənət yolu" adlı biblioqrafik göstəricinin nəşri nəzərdə tutulur. Həmçinin Hüseyn Cavidin həyat və yaradıcılığı ilə bağlı kiril qrafikasında olan görkəmli cavidşünasların əsərlərinin müasir qrafikada nəşri də planlaşdırılır.

**Nurəddin**

# Həyatını məhv etmə!

## İki muzeyin narkomaniya əleyhinə birgə maarifləndirici tədbiri

Bəşəri bəla olan narkomaniya ilə mübarizədə xüsusilə yeniyetmə və gənclər arasında maarifləndirmə işinin xüsusi əhəmiyyəti var. Bu işə mədəniyyət müəssisələri də öz töhfələrini verə bilərlər.



Oktyabrın 19-da Leopold və Mstislav Rostropoviçlərin Ev-Muzeyində Abdulla Şaiqin Mənzil-Muzeyi ilə birlikdə "Həyatını məhv etmə!" adlı tədbir keçirilib. Tədbirdə N.Tusi adına 173 saylı orta məktəb, Bakı şəhəri T.İsmayılov adına 6 saylı məktəb-lisey və Bülbül adına Orta İxtisas Musiqi Məktəbinin şagird və müəllimləri, həmçinin qonaq qismində mütəxəssislər – Bakı Dövlət Universitetinin müəllimi, "Yaşam" psixologiya və təlim mərkəzinin rəhbəri Könül Cəfərova, "Step" reabilitasiya mərkəzinin rəhbəri, həkim İlqar Xəlilov iştirak ediblər.

Leopold və Mstislav Rostropoviçlərin Ev-Muzeyinin icraçı direktoru Günay Əliyeva və Abdulla Şaiqin Mənzil-Muzeyinin direktoru Ülkər Talıbzadə tədbiri açaraq qonaqları salamlayıblar.

Psixoloq Könül Cəfərova narkotik maddələrin insan orqanizminə vurduğu ziyan barədə danışıb. Həkim İlqar Xəlilov insanları bu bəşəri bəladan uzaq olmağa səsləyərək deyib ki, uşaqlar mümkün olduqca problemlərini, sıxıntı və dərdlərini öz ailələri və ya ən yaxın bildikləri dostları ilə bölüşsünlər.

Sonra mütəxəssislər məktəblilərin mövzu ilə bağlı suallarını cavablandırıblar.

Sonda qonaqlara təşəkkürünü bildirən hər iki muzey rəhbəri məktəblilərin zərərli vərdişlərə aludə olmaması üçün onların mədəni-kütləvi, əyləncəli tədbirlərə, eləcə də müxtəlif özfəaliyyət dərnəklərinə daha fəal cəlb edilməsinin vacibliyini vurğulayıblar.

Xəlil Rza Ulutürk – 90

# İstiqlal carçısı, azadlıq nəğməkarı

**Bu gün XX əsrin ikinci yarısında Azərbaycan poeziyasında özünəməxsus dəst-xətti ilə seçilən, milli məfkurənin oyanmasına stimul verən görkəmli şair, ədəbiyyatşünas, tərcüməçi, publisist, Xalq şairi Xəlil Rza Ulutürkün doğum günüdür. Bu il həm də mərhum sənətkarın anadan olmasının 90 illiyidir.**



Xəlil Rza oğlu Xəlilov (Ulutürk) 1932-ci il oktyabrın 21-də Salyan rayonunun Pirəbbə kəndində dünyaya göz açıb. 2 saylı Salyan şəhər orta məktəbində təhsil alıb. Hələ məktəbli ikən poeziyaya maraq göstərir. Salyan şəhər kitabxanasında ədəbiyyat dərnəyinin üzvü olur. "Kitab" adlı ilk şeiri 1948-ci ildə "Azərbaycan pioneri" qəzetində dərc olunur.

Xəlil Rza 1949-cu ildə Azərbaycan Dövlət Universiteti (BDU) Filologiya fakültəsinin Jurnalistika şöbəsinə daxil olur. Universitetdə ədəbiyyatşünas alim Cəfər Xəndanın, sonralar Xalq şairi Bəxtiyar Vahabzadənin rəhbərlik etdiyi ədəbi dərnəklərdə, Azərbaycan Yazıçılar İttifaqında Xalq yazıçısı Mirzə İbrahimovun başçılığı ilə keçirilən "Gənclər günü" məşğələlərində yaxından iştirak edir.

Bütün bunlar gənc Xəlil Rzanın bir şair kimi püxtələşməsinə, yaradıcılıq istiqamətinin formalaşmasına ciddi təsir göstərir.

Xəlil Rza 1954-cü ildə ali təhsilini başa vurur. Təyinatla "Azərbaycan qadını" jurnalında işə başlayır. Həmin jurnalda və digər mətbuat orqanlarında şeir və məqalələri dərc olunur. Bir il sonra Azərbaycan Yazıçılar İttifaqının üzvü qəbul edilir. Şeirlərindən ibarət "Bahar gəlir" adlı ilk kitabı 1957-ci ildə çapdan çıxır. Həmin il Azərbaycan Yazıçılar İttifaqı Xəlil Rzanı M.Qorki adına Dünya Ədəbiyyatı İnstitutu (Moskva) nəzdindəki ikiillik ali ədəbiyyat kurslarına göndərir.

Moskvada olarkən görkəmli rus şairi Samuil Marşakın evində, sonra Yasnaya Polyanada dahi Lev Tolstoyun Ev-Muzeyində olur. Sankt-Peterburqda (Leninqrad) Ermitaj Muzeyinə kollektiv səfəri, Nazim Hikmət və Mixail Şoloxovla görüşləri gənc şairin xatirəsində dərin izlər buraxır.

O, 1959-cu ildə Bakıya dönür və Azərbaycan Dövlət Pedaqoji İnstitutunun (indiki ADPU) aspiranturasında təhsilini davam etdirir. 1963-cü ildə "Müharibədən sonrakı Azərbaycan sovet ədəbiyyatında poema janrı (1945-1950)" mövzusunda namizədlik dissertasiyasını uğurla müdafiə edir. Həmin institutda müəllim kimi fəaliyyətini davam etdirir.

Araşdırmalarda qeyd edilir ki, o, müəllim kimi daxil olduğu auditoriyaya təkcə tədris proqramında nəzərdə tutulanları deyil, milli tarixi yaddaşı oyadan, milli dəyərlərimizdən və doğma dilimizdən ürək yanğısı ilə söhbət açır. Bir müddət sonra Azərbaycan Elmlər Akademiyasının Nizami adına Ədəbiyyat İnstitutuna dəyişilir. Bütün qüvvəsini elmi tədqiqat işinə və bədii yaradıcılığa həsr edir. Azərbaycan-özbək ədəbi əlaqələri, Maqsud Şeyxzadənin həyat və yaradıcılığı haqqında monoqrafik əsərlər üzərində çalışır. "Ömürdən uzun gecələr" adlı kitabı, SSRİ xalqlarının dillərindən tərcümə edilən poetik əsərlərdən ibarət "Qardaşlıq çələngi" toplusu 1984-cü ildə Azərbaycan SSR Dövlət mükafatına təqdim olunur. Ancaq şair hakim dairələrin etinasızlığı ilə qarşılaşır...

Xəlil Rzanın yaradıcılığına dərindən diqqət yetirdikcə hiss olunur ki, 1950-60-cı illərdə şairin azadlıq məfkurəsi mücərrəd məna daşıyıb. 1970-ci illərdə beynəlmiləl mövzuda yazdığı şeirlərində milli ruh və istiqlal düşüncələrinə yer də verilib. 1980-ci illərin əvvəllərində qələmə aldığı əsərlərində isə milli məramı daha da aydınlaşır. Həm də bu illərin şeirlərində güclü çağırış ruhu hakimdir. Şairin "Əyilmək qorxusu", "Gücüm, gücsüzlüyüm", "Çılğınlıqdan dözümə keçid", "Dözümlü ol, dəli könül", "Məndən başlanır Vətən", "Heç bir ehtiyat", "Heç olmasa bircə nəfər" şeirlərində tərəddüdləri yox olur. "Qalx ayağa, Azərbaycan!", "Yalnız pasportunda", "Boz qurda öygü", "Mən günəş ürəkli Xəlil Rzayam" və başqa əsərlərində türkçülük milli müəyyənlik kimi dəyərləndirilir. Bütün bunlara baxmayaraq, onun nəzərində türkçülük, turançılıq, fatehlik və mənəm-mənəmlik olmayıb.

Xəlil Rza 1985-ci ildə "Maqsud Şeyxzadənin bədii yaradıcılığı və Azərbaycan-özbək ədəbi əlaqələrinin aktual problemləri" mövzusunda doktorluq dissertasiyası müdafiə edir. 1986-cı ildə "Əməkdar incəsənət xadimi" fəxri adına layiq görülür.

1980-ci illərin axırlarında ölkədə xalq azadlıq hərəkatı genişlənməyə başlayır. Bu zaman Xəlil Rzanın gur səsi respublikanın ən ucqar yaşayış məntəqələrində eşidilir. O, bütün varlığı ilə xalq hərəkatına qoşulur. Alovlu çıxışları ilə rus şovinist siyasətini, Qarabağ torpağına təcavüz edən erməni daşnaklarını ifşa edir:

*Biz Türküstan elləriyik,*
*Qeyrət, qüdrət selləriyik.*
*Daşnakları qovan bizik,*
*Dar gözləri ovan bizik.*
*Yetər meydan suladılar,*
*Yurdumuzu taladılar...*

Son günlərini yaşayan sovet imperiyası 20 yanvar 1990-cı ildə Bakıda dinc əhaliyə vəhşicəsinə atəş açır. Şair bütün qüvvəsi ilə gecə-gündüz dinclik bilmədən ürəyini məşələ çevirir və xalqı düşmənlərə qarşı mübarizəyə səsləyir. Xarici ölkə jurnalistlərinə verdiyi müsahibələrdə 20 Yanvar hadisələrini, M.Qorbaçovun qanlı əməllərini dünya ictimaiyyətinə çatdırmağa çalışır. Yanvarın 26-da Xəlil Rza SSRİ Dövlət Təhlükəsizliyi Komitəsinin əməkdaşları tərəfindən həbs edilir. Sonra Moskvadakı Lefortovo həbsxanasına göndərilir. Aramsız sorğu-sual, ağır ittiham şairin iradəsini qıra bilmir. O, zindanda da mübarizəsini davam etdirir. 8 ay 13 gün ərzində odlu-alovlu qəlbinin işığında "Lefortovo gündəliyi"ni – 200-dən çox şeir və məktubunu qələmə alır. 1990-cı il oktyabrın 9-da Bakıya gətirilən Xəlil Rza bir ay davam edən məhkəmə prosesindən sonra azadlığa buraxılır.

1992-ci ildə Xəlil Rzaya müstəqil Azərbaycanın "Xalq şairi" fəxri adı verilir. İstiqlal carçısı şair qardaş Türkiyədə də mükafata layiq görülür. Bu arada şairin səhhətində problemlər yaranmışdı, illərlə aldığı mənəvi zərbələr səhhətində öz işini görürdü. Türkiyə Prezidenti Süleyman Dəmirəlin tapşırığı ilə Xəlil Rza İstanbulda ürəyindən müalicə olunur. 1993-cü ildə Bakıya qayıdan Xəlil Rza Ulutürkün səhhəti yaxşılaşmadığına görə Almaniyaya göndərilir. Bir müddət orada müalicə aldıqdan sonra Bakıya qayıdan şairin vəziyyəti daha da ağırlaşır. Bakıda Kardiologiya İnstitutunda müalicə olunur.

Xəlil Rza 22 iyun 1994-cü ildə dünyasını dəyişib, Fəxri xiyabanda dəfn olunub. Prezident Heydər Əliyevin sərəncamı ilə 1995-ci ildə Azərbaycanın ali təltifinə – "İstiqlal" ordeninə (ölümündən sonra) layiq görülüb.

**Savalan Fərəcov**

## Xətainin 535 illiyinə həsr edilmiş elmi konfrans

Oktyabrın 18-də "Azərbaycan Milli Ensiklopediyası" Elmi Mərkəzində "Şah İsmayıl Xətai - 535" adlı elmi konfrans keçirilib.

Konfransı açan tarixçi Xəyalə Günəş Əyriçalmalı 18 Oktyabr – Müstəqilliyin Bərpası Günü münasibətilə iştirakçıları təbrik edib, sonra Şah İsmayıl Xətainin Azərbaycan tarixində rolundan bəhs edib.

Tarix elmləri doktoru, professor Şahin Fazil, AMEA-nın Tarix İnstitutunun aparıcı elmi işçisi, ADPU-nun dosenti Mübariz Ağalarlı çıxış edərək Şah İsmayıl Xətainin həyat və fəaliyyətindən söz açıb, onun yaddaşlara millət, dövlət quruculuğu sahəsində bir neçə mühüm strateji istiqaməti qovuşduran qüdrətli sərkərdə, dövlət xadimi kimi həkk edildiyini bildiriblər. Onun qurduğu Azərbaycan Səfəvi dövlətinin etno-siyasi, dini-ideoloji və mədəni həyatı haqqında əhəmiyyətli məlumatlar diqqətə çatdırılıb.

Konfransda ilahiyyatçı alim Soltan Əlizadə və ilahiyyatçı Həsən Hüseyninin Şah İsmayıl Xətainin həyat və yaradıcılığı barədə məruzələri də dinlənilib. Xətainin şeirləri alimlər tərəfindən səsləndirilərək təhlil edilib.

# Bir rejissorun sənət və həyat yadigarları...

## İldırım Cabbarov teatra sevgi yaratmaq üçün yorulmadan çalışıb

**Günlər, aylar öz-özünə gözəl olmur. Zamanı yaxşı məqamlarla zəngin edən, sözsüz ki, insandır. Kaş ki, keçmiş daha çox gözəlliklərlə, yaxşılıqlarla xatırlana...**
**Mərhum teatr rejissoru İldırım Cabbarov da həm sənəti, həm də gözəl insani keyfiyyətləri ilə qəlblərdə iz qoyan sənətkarlardan olub. Onun haqqında ilk dəfə məlumat almağım insanlığın ömürdən saymadığı dövrə – pandemiya zamanına – təsadüf eləmişdi. Həqiqətən də, bir təsadüf. Bu elə bir zaman idi ki, ictimai nəqliyyata müvəqqəti məhdudiyyət qoyulmuş, işə gedib-gəlmək çətinləşmişdi. Dayanacaqlarda "əlləri yuxarı" vəziyyətdə gözləyib yol maşınlarının sürücülərindən imdad diləyirdik.**

O arzuolunmaz günlərdən biri. Qəsəbəmizdə bir minik maşını məhəllədən çıxıb dayanacaqda gözləyən insanlara yaxınlaşır. Təxminən 50-55 yaşlı sürücü başı ilə keçib əyləşməyimizi işarə edir. Cəld irəli çıxıb istiqamətini və neçəyə apardığını xəbər alıram. Mülayim səslə deyir ki, taksi deyiləm, oturun gedək. Sürücünün yanındakı oturacaqda əyləşirəm, arxaya da iki nəfər minir, yola düşürük. Dəqiqələr keçir, heç kim danışmır. Düşünürəm ki, "taclı bəla" ağızburnumuzu qapayıb, səsimizi ki batırmayıb. Bir qədər getdikdən sonra sürücü maşının maqnitofonuna əlini uzadır. "Görəsən, əminin musiqi zövqü necədir", deyə düşünürəm. Xalq artisti Rasim Balayevin qulaqlara sığal çəkən səsi gəlir. Sənətkar "Quran"dan surələri dilimizdə səsləndirir...

Metronun "Azadlıq prospekti" stansiyasına yaxınlaşanda çantamdan pulqabını çıxarmağa çalışıram. Sürücü maqnitofonun səsini azaldır və astadan:

– Bayaq dedim ki, taksi deyiləm.

– Bilirəm, taksi işləmirsiniz, ancaq bu çətin məqamda bizi mənzilbaşına çatdırdınız. Götürün, bu bir manat qazanc deyil...

– Yox! Atama rəhmət oxuyarsınız, vəssalam...

İki gün sonra dayanacaqda təkəm. Təsadüfən həmin maşın yenə yaxınlaşıb dayanır. Sürücü əyləşməyimi istəyir. Deyirəm, axı pul... Sözümü kəsir. Otururam, gedirik. Tibbi maskanın burun hissəsini bir qədər sıxıb sözə başlayır:

– Cavansan, hər şey pulla ölçülmür. Rahat ol, onsuz da mən bu yolu gedirəm.

İşimi soruşur. "Mədəniyyət" qəzetində çalışdığımı deyirəm. Siması işıqlanır. Bu arada adını öyrənirəm: Rauf Cabbarov.

Deyir, atam İldırım Cabbarov incəsənət sahəsində çalışıb. Bəlkə də hər işdə qazanc axtarsaydı, yaxşı ad-san qoyub getməzdi.

Sualları bir-birinin ardınca düzürəm. Oğlu atasının həyat və sənət portretini cızmağa çalışır. Düşünürəm ki, atası haqqında bir yazı hazırlayar, beləliklə, bu xeyirxah insanın xəcalətindən çıxaram...

***

İldırım Bəhram oğlu Cabbarov 10 oktyabr 1935-ci ildə Füzuli rayonunun Yuxarı Əbdürrəhmanlı kəndində doğulub. Xocavəndin Edilli kəndində orta məktəbi bitirib, İncəsənət İnstitutunun aktyorluq ixtisasına qəbul olunub. Burada təhsil aldığı dövrdə paralel olaraq Füzuli rayon Xalq teatrında da fəaliyyət göstərib. Həm də məlahətli səsi olan İldırım Cabbarov muğam və xalq mahnılarımızı gözəl ifa edib. Bir müddət tanınmış xanəndələr Ağabala Abdullayev və Süleyman Abdullayevlə el məclislərinə də gedib.

Ali təhsilini başa vurduqdan sonra təyinatla Naxçıvan teatrına göndərilir. 1961-1962 və 1965-1966-cı illərdə Naxçıvan teatrında aktyor və rejissor kimi fəaliyyət göstərir. Naxçıvan səhnəsində çalışdığı vaxt rejissorluq üzrə əlavə təhsil almaq qərarına gəlir və Moskvada ali rejissorluq kursunu bitirir. Muxtar respublikaya qayıdan teatr xadimi burada ondan çox əsərə quruluş verir, bir sıra tamaşalarda özü də müxtəlif obrazları canlandırır.

Sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent Əli Qəhrəmanov "Naxçıvan teatrında rejissor sənəti" monoqrafiyasında İldırım Cabbarovun da fəaliyyətinə geniş yer verib. Kitabda qeyd olunur ki, rejissor Naxçıvan səhnəsində M.Əlizadə və A.Məşədibəyovun "Toy kimindir?", İ.Coşqunun "Komsomol poeması" (Səməd Vurğunun eyniadlı poeması əsasında), G.Fiqeyredonun "Ezop", H.Fətullayevin "Vüqarlı gözəl", M.İbrahimovun "Yaxşı adam", M.Şamxalovun "Qayınana", S.Rüstəmin "Durna", C.Cabbarlının "Almaz", K.Qoldoninin "İki ağanın bir nökəri" və s. əsərlərə maraqlı quruluşlar verib, tamaşalar anşlaqla keçib.

Rejissor "Toy kimindir?" musiqili komediyasını 1961-ci ildə tamaşaya qoyub, özü də Mehman obrazında çıxış edib. Həmin tamaşa haqqında resenziya çap etdirən Əliyar Yusifli yazır: "Əsəri geniş tamaşaçı kütləsinin qarşısına çıxarmaq üçün teatrın yaradıcı kollektivi çox zəhmət



çəkmişdir. Bunu birinci növbədə quruluşçu rejissor İldırım Cabbarovun işində görürük...".

İ.Cabbarov Naxçıvan səhnəsində rejissorluqla yanaşı, aktyor kimi də özünü təsdiq edib. H.Cavidin "Səyavuş"unda Əfrasiyab, İ.Coşqunun "Komsomol poeması"nda Cəlal, H.Razinin "Odlu diyar"ında Xəlil bəy, Ə.Qəmbərovun "İlan yuvasında fırtına" əsərində Con, K.Ağayevanın "Məhsəti"sində İlyas, S.Ələsgərovun "Özümüz bilərik" musiqili komediyasında Zəfər obrazları xüsusilə yaddaqalan olub.

Sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent Ələkbər Qasımov "Nizami Gəncəvi obrazı Naxçıvan səhnəsində" məqaləsində İ.Cabbarovun dahi Azərbaycan şairinin obrazını məharətlə canlandırmasından bəhs edir: "Nizami Gəncəvi obrazı ikinci dəfə C.Məmmədquluzadənin adını daşıyan Naxçıvan Dövlət Musiqili Dram Teatrının bugünkü möhtəşəm binasında pərdələrin ilk dəfə açıldığı gün – 1964-cü il oktyabr ayının 24-də səhnədə göründü. Bu, unudulmaz şair və dramaturqumuz Kəmalənin "Məhsəti" mənzum faciəsindəki gənc İlyas – Nizami obrazı idi... Bu obraz teatrın aktyoru və rejissoru İldırım Cabbarovun ifasında istər Naxçıvanda, istərsə də teatrın Bakı, Tbilisi və digər regionlara səfərində tamaşaçılar tərəfindən rəğbətlə qarşılandı.

Həmin günlərdə "Məhsəti" tamaşası haqqında mərkəzi mətbuat səhifələrində bir neçə resenziya dərc olunmuşdu. Onlardan birinə – şair-dramaturq, teatrşünas Adil Babayevin resenziyasında məhz İlyas obrazı barədəki fikrinə diqqət etmək yerinə düşər: "İlyas surətilə müəllif gənc Nizamini göstərmək istəmişdir. Artist İldırım Cabbarov ustadına (Məhsətiyə) sonsuz hörmət bəsləyən, onun fəlakətlərinə can yandıran, taleyi uğrunda mübarizə edən gənc şairin surətini tamaşaçılara sevdirə bilir".

Həsən Fətullayevin "Vüqarlı gözəl" əsəri 1966-cı ildə İ.Cabbarovun quruluşunda tamaşaya qoyulub və quruluşçu rejissor özü həmin tamaşada çox mürəkkəb xarakterə malik Xanbala Cavadov rolunu məharətlə yaradıb. Səhnə əsəri haqqında bir resenziyada deyilir: "Tamaşaçılar İldırım Cabbarovun ifasında Xanbala Cavadovu qəddar, vicdansız, rüşvətxor, insan ləyaqətini tapdalayan, vəzifəsindən sui-istifadə edən bir müəssisə başçısı kimi görür və nifrət edirdilər...".

İ.Cabbarov 1968-ci ildə yaradılan Mingəçevir Dövlət Dram Teatrında baş rejissor kimi fəaliyyətə başlayır. Bir il sonra teatr onun quruluşunda C.Cabbarlının "Almaz" tamaşası ilə qapılarını mingəçevirli sənətsevərlərin üzünə açır. Sonra rol aldığı və özünün quruluş verdiyi neçə-neçə səhnə əsəri tamaşaçılar tərəfindən rəğbətlə qarşılanır.


İ.Cabbarovun quruluş verdiyi "Od parçası" tamaşası (1969)

Yeri gəlmişkən, qeyd edək ki, sadə və səmimi insan olan İ.Cabbarov sənətə prinsipial yanaşıb, onun meyarlarını həmişə ciddiyə alıb. Səhnənin tələblərinə uyğun gəlməyən əsərlərin teatra yol açmasına imkan verməyib. Həmin dövrdə yararsız bir əsərin repertuara salınması üçün Mingəçevir şəhər rəhbərliyindən göstəriş gəlir. Əsərlə tanış olan rejissor buna qarşı çıxır. Nəticədə ciddi konflikt yaranır və İ.Cabbarov təxminən 10 il teatrdan uzaqlaşmalı olur, müxtəlif işlərdə çalışır. Nəhayət, "qara bulud" çəkilir, o, 1990-cı ildə yenidən Mingəçevir teatrına qayıdır...

Mingəçevir teatrı yaranandan orada fəaliyyət göstərən, İ.Cabbarovla çiyin-çiyinə çalışan və bir sıra tamaşalarda onunla tərəf-müqabil olan Xalq artisti Ella Yaqubova mərhum sənətkarı xoş duyğularla, minnətdarlıqla yada salır. Deyir ki, İ.Cabbarov teatra gəldiyi ilk günlərdən sənətlə bağlı tələblərlə paralel olaraq kollektivin birliyinə, mehribanlığına xüsusi diqqət yetirirdi: "Gənc artistlərə qayğı ilə yanaşır, onların püxtələşməsi üçün əlindən gələni əsirgəmirdi. Həm də gənc əməkdaşlardan yaşlı sənətkarlara ehtiram göstərmələrini istəyirdi. Yəni kollektivi bir ailə kimi görürdü. Elə bir səmimiyyət yaratmışdı ki, biz sirrimizi, problemlərimizi onunla bölüşür, məsləhət alırdıq. Məqamı gələndə iş yoldaşlarını müdafiə edir, çətinlikləri aşmağımızda bizə dəstək olurdu. Ana yurdunun işğal altında olması onun üçün böyük dərd idi. Yurd həsrətini ifadə edən səhnə əsərlərini izləyəndə hönkürtü ilə ağlamağına şahid olmuşam. Təəssüf ki, torpaqlarımızın işğaldan azad olunmasını görə bilmədi".

Ella xanım onu da bildirir ki, İldırım müəllim teatra sevgi yaratmaq, bu sənətin üfüqlərini daha da genişləndirmək üçün yorulmadan çalışırdı: "Nümunəvi ailəsi vardı. Onlar da tez-tez tamaşalara gələrdilər. Demək olar ki, kollektivə qaynayıb-qarışmışdılar. İldırım müəllim mingəçevirlilərin dərin hörmətini qazanmışdı. Buna görə də dünyasını dəyişəndə böyük izdiham onu sevgiylə, hörmətlə son mənzilə yola saldı. Biz sənət dostları bu əziz insanı heç vaxt unutmayacağıq. Mən hər gün teatrın binasına daxil olanda mütləq onun da şəkli qarşısında dayanır, ruhuna rəhmət oxuyuram".

Sənətkar Mingəçevir səhnəsində neçə-neçə əsərə uğurlu səhnə həlli verib. Həmçinin İ.Əfəndiyevin "Sevgililərin cəhənnəmdə vüsalı" əsərində Avşar Hüseyn, "Tənha iydə ağacı"nda Kərim bəy, C.Cabbarlının "Almaz"ında Hacı Əhməd, "Solğun çiçəklər"də Bəhram, C.Məmmədquluzadənin "Danabaş kəndinin məktəbi"ndə Naçalnik, S.Vurğunun "Vaqif"ində İbrahim xan kimi aparıcı obrazları məharətlə yaradıb. O, teatrsevərlərin gözünün axtardığı, arzulanan sənətkar kimi şöhrət qazanıb.

İ.Cabbarov Azərbaycan SSR Ali Sovetinin Rəyasət Heyəti və Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyinin fəxri fərmanları ilə təltif edilib. 2005-ci ildə anadan olmasının 70, səhnə fəaliyyətinin 50 illiyi münasibətilə Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin fəxri fərmanına layiq görülüb. Tanınmış teatr xadimi 2014-cü il yanvarın 23-də Mingəçevirdə dünyasını dəyişib, şəhər qəbiristanlığında dəfn olunub.

***

Bəli, İldırım Cabbarov haqqında oxucuları, az da olsa, məlumatlandırmağa çalışdım. Ancaq, çox təəssüf ki, xəyalını qurduğum kimi, qəzetimizin bu yazının dərc olunan sayını rejissorun oğlu Rauf bəyə verib sürpriz edə bilməyəcəm. Demək, fələk sürpriz sarıdan məndən qoçaq tərpənibmiş. Özü də acı sürpriz...

Bir müddət bu xeyirxah insan gözə dəymədi. Məhəllədə, yolda axtarırmağa başladım. Bir gün avtobus dayanacağımıza yaxın mağazanın sahibindən onu xəbər aldım. Dedi Rauf dünyasını dəyişib. Yerimdə donub qaldım. Elə o an özünün vaxtilə söylədiyi "Atam hər işdə qazanc axtarsaydı, yaxşı ad-san qoyub getməzdi" sözləri beynimdə dolaşdı...

Həyat da səhnə kimidir; "oynadığın" obrazların yaxşısı, yamanı var. Gərək özün yaman olmayasan... Təsəllim odur ki, dünyanı yaşamalı edən yaxşılardan – bu ata-oğuldan – söz aça bildim. Ruhları şad olsun.

**Fariz Yunisli**

# Fortepiano əsərlərinin ən yaxşı ifası

## Bəstəkarlar İttifaqı "Heydər Əliyev İli" çərçivəsində müsabiqə elan edib

Azərbaycan Bəstəkarlar İttifaqı mədəniyyətimizin böyük hamisi, ümummilli lider Heydər Əliyevin anadan olmasının 100 illiyi münasibətilə, 2023-cü il – "Heydər Əliyev İli" çərçivəsində bəstəkar, Xalq artisti, professor Azər Dadaşovun "Fortepiano əsərlərinin ən yaxşı ifası" üzrə VI beynəlxalq müsabiqə elan edib.

İttifaqdan bildirilib ki, 2023-cü il aprelin 24-25-də Bakıda keçiriləcək ifaçılıq müsabiqəsi 2 mərhələdən ibarətdir.

Müsabiqənin birinci mərhələ üzrə proqramına A.Dadaşovun fortepiano silsilələrindən ("Çiçəkçin" (7 rəqs), "6 miniatür", "6 qəmli pyes", "6 prelüd", "Atmacalar" (6 konsert pyesi), 1 saylı sonatina, 2 saylı sonatina, 3 saylı sonatina, lirik pyeslər) birinin ifası daxildir. İştirakçılar öz istəklərinə uyğun olaraq seçdiyi silsiləni, bütöv, yaxud müəyyən hissələri ifa edə bilərlər.

İkinci mərhələ üzrə ifa proqramına A.Dadaşovun ümummilli lider Heydər Əliyevə həsr olunmuş Fortepiano ilə kamera orkestri üçün "Poema"sı (iki piano üçün köçürmə) daxildir.

Müsabiqədə yaş məhdudiyyəti qoyulmur. Müsabiqədə iştirak etmək istəyənlər 2023-cü il aprelin 1-dək müvafiq sənədləri Azərbaycan Bəstəkarlar İttifaqına (əlaqə: (012) 598 08 86) təqdim edə bilərlər.

Müsabiqənin təşkilat komitəsinin və münsiflər heyətinin sədri – Azərbaycan Bəstəkarlar İttifaqının sədri, Xalq artisti, UNESCO-nun "Sülh artisti", professor Firəngiz Əlizadədir.

Münsiflər heyətinin qərarı ilə seçiləcək qaliblərə pul mükafatları, diplomlar, xüsusi mükafatlar təqdim olunacaq. Birinci yer üçün 1000 manat və birinci dərəcəli diplom, ikinci yer üçün 750 manat və ikinci dərəcəli diplom, üçüncü yer üçün 500 manat və üçüncü dərəcəli diplom nəzərdə tutulur.

Dövlət, ictimai və özəl təşkilatlar müsabiqənin qalibləri üçün özlərinin xüsusi mükafatlarını təsis edə bilərlər.

Müsabiqənin bütün iştirakçılarına sertifikat və xatirə medalları veriləcək.

# Musiqi Mədəniyyəti Dövlət Muzeyində uşaqlar üçün ekskursiya proqramları təşkil edilir



Azərbaycan Musiqi Mədəniyyəti Dövlət Muzeyi fəaliyyətində uşaq və yeniyetmələrin mədəni irsimizə marağını təşviq etmək, estetik tərbiyə və dünyagörüşünü inkişaf etdirmək, onlara mədəni bacarıqlar aşılamaq kimi məsələlərə də önəm verir. Xüsusilə uşaqların asudə vaxtlarını səmərəli etmək üçün onları mütəmadi olaraq mədəniyyət ocaqlarına, o cümlədən muzeylərə cəlb etmək lazımdır. Təbii ki, bu iş yaş xüsusiyyətlərinə uyğun olaraq aparılmalıdır. Ona görə də muzeydə müxtəlif yaş qrupuna aid olan uşaqlara fərqli yanaşma tətbiq olunur.

Muzeydən bildirilib ki, məktəbəqədər və ibtidai sinif şagirdləri üçün ekskursiyalar təşkil edilir, bu zaman onlar canlı və diskə yazılmış musiqi dinləyə, bəzi alətlərə toxuna bilirlər. Həmçinin muzeyi ziyarət edəcək balacalar Azərbaycanın görkəmli bəstəkarı Qara Qarayevin nəvəsinə yazdığı məktublarda illüstrasiya etdirdiyi rəsmlərin, muzeyin kolleksiyasından müxtəlif rəssamların opera və baletlər üçün çəkdikləri eskizlərin xüsusi hazırlanmış surətlərini rəngləyə bilərlər.

Bir qədər böyük uşaqlar üçün isə "Sehrli sandıq" və "Melodiyanı tap" oyunları keçirilir, "Azərbaycan xalq musiqi alətləri" mövzusunda Azərbaycan və rus dillərində sadə krossvordlar təqdim olunur. Onlar "Günay" uşaq teatrının artistləri kimi özlərini gənc bələdçi rolunda da sınaya bilərlər.

# Kədərin qüdrəti – melanxoliyaya boyanmış incəsənət...

Məşhur Norveç rəssamı Edvard Munk 1894-cü ildə düşüncələri arasında itkin düşən, ruhunda əskiklik hissi olan, çökmüş və qəmgin bir insanın portretini çəkir. Rəsmin adını belə qoyur: "Melanxoliya".

Melanxoliya darıxdığımız zaman, geri dönüşü olmayan keçmişə həsrət qaldığımız anların bizi üstələdiyi duyğulardır. Melanxolik vəziyyətdən çıxmağa ruhən güclü şəxslər nail olurlar. Bu vəziyyətlə barışa bilməyənlər bəzən həyatdan qopmaq həddinə çatırlar. Belə zamanda insanın qoruyucu mələyi bədii yaradıcılıq olur. İncəsənət həqiqi mənada adətən katarsis rolunu oynayır. Viktor Hüqo "Melanxoliya kədərdən doğan xoşbəxtlikdir" deyir.

Qeyd etdiyimiz kimi, bu emosional vəziyyət həmişə yaradıcılıqla əlaqələndirilir. Bu söz yunan dilindən tərcümədə "qara hüzn" mənasını verir. Melanxoliyanı böyük şəxsiyyətlərin, dahilərin xəstəliyi, dərdi kimi qəbul edirlər. Melanxolik əsərlər dedikdə ağıla ilk gələnlərdən biri britaniyalı rəssam Con Everett Millais tərəfindən yaradılmış "Ofeliyanın ölümü" adlı kompozisiyadır. Bu tablo Şekspirin məşhur "Hamlet" əsərinin qəhrəmanı Ofeliyanın suda boğularaq iztirablarına son qoyan faciəsinin təsviri sənətdə təcəssümüdür. Ancaq Qərb dünyasının melanxolik sənətkarı deyiləndə, əlbəttə ki, ilk olaraq dahi Van Qoq yada düşür. Onun qədər şövqünü, kədərini, gərgin hisslərini portretlərində ustalıqla əks etdirən ikinci bir rəssam bəlkə də yoxdur...

Fransız şair və tənqidçi Şarl Bodler melanxoliyasız gözəlliyi çətin təsəvvür edə bildiyini vurğulayırdı. İşıqdan səmərəli istifadə melanxoliyanın mənəvi ölçüsü ilə izləyicilər arasında müəyyən əlaqə yarada bilən ən önəmli vasitədir. Sürrealist və metafizik tədqiqatlar aparan italyan rəssam Giorgio de Chirico mənzərə rəsmlərində işıqdan istifadə ilə əsərlərin melanxolik və sirli atmosfer yaratmasına nail olub. Bu rəsmlərdə rəssam günəşin doğmağa və ya batmağa başladığı anları işıq-kölgə effekti ilə elə təsvir edirdi ki, onlar rəsmin əsas elementlərinə çevrilirdilər.

Tarix boyu duyğuları melanxolik şəkildə daha yaxşı ifadə edə bilmək üçün həzin obrazlardan (xüsusən də qadın fiqurlarından) istifadə olunub. Monoxrom və ya soyuq çalarların hakim olduğu tablolar məhz bu qəbildəndir. Kubist rəsmləri ilə tanınan ispan rəssam Pablo Pikasso "mavi dövr" adlandırılan 1901-1904-cü illər arasında sadə insanları, evsizləri, sərxoşları və küçə qadınlarını məhz bu tərzdə kətana köçürürdü. Gündəlik həyatdan seçdiyi bu fiqurlarda həmişə kədər və həzinlik var idi.

Postimpressionist fransız rəssam Pyer Bonnarın fiqurlu rəsmlərində də melanxolik elementlər var. Bonnar 1925-ci ildə modellərindən biri Marta ilə evlənir. Rəsmlərində o, adətən həyat yoldaşını və özünü təsvir edirdi. 1942-ci ildə Martanın ölümü ilə rəssam özünü daha çox təsvir etməyə başlayır. O, vanna otağının güzgüsü qarşısında özünün çoxlu kədərli portretlərini çəkir. Bu əsərlər portret və melanxoliyanın qarşılıqlı əlaqəsi baxımından olduqca əhəmiyyətlidir.

***



Azərbaycan incəsənətində, rəssamlarımızın yaradıcılığında da melanxolik hisslərə, izlərə rast gəlmək mümkündür.

Milli realist rəssamlığın banisi və mahir fırça ustası Bəhruz Kəngərlinin yaradıcılığında "Qaçqınlar" silsiləsi mühüm yer tutur. Bu silsiləyə daxil olan hər bir portretin simasında həsrət, qüssə və melanxolik hisslər ustalıqla əks olunub.

Orijinal üslubu ilə seçilən, sərt realizmi müasir aspektlərlə birgə icra edən görkəmli rəssam Tahir Salahovun yaradıcılığında tünd rənglər, sərt cizgilər, kontrast hər zaman qabarıq istifadə olunurdu. Lakin rəssamın əsərlərinin arasında bir az romantik, bir az lirik, bir o qədər də melanxolik ab-havaya malik kompozisiyaları da var. Belə kompozisiyalardan biri "Xəzər gecəsi" isimli sənət nümunəsidir. Bu əsərlə biz melanxoliyanın mənzərə janrında təzahürünü görməkdəyik. Eyni çalarların tünd və açıq rənglərindən məharətlə istifadə olunması, qalın, ifadəli və dolğun cizgilərin ritmi bu əsəri melanxolik göstərən əsas xüsusiyyətlərdir.

Vidadi Nərimanbəyov əsərlərində öz duyğularını, fərdi baxışını və xüsusən də tərzini qabarıq şəkildə vurğulayan istedadlı, usta rəssamlarımızdan biri olub. Daxili aləmində gizlətdiyi həzin duyğulardan qidalanaraq onu bədii yaradıcılığa çevirən fırça ustasının "Yaddaş" əsəri melanxolik ab-hava daşıyır. Yaddaşın, xatirələrin müəmmalı tərəflərini təqdim etməyə çalışan sənətkar mistik kolorit seçiminə malik kompozisiya ilə izləyicilərdə həzin duyğu effekti yaradır.

Rəssam Fikrət İbrahimlinin yaradıcılığı avanqard realizmin bünövrəsində şaxələnərək parlaq və kamil bir bədii yol keçib. İfadəli mənzərə nümunələri olan rəssamın isti çalarların üstünlük təşkil etdiyi "Sübh çağı" əsərində melanxolik hissə qapılıb qeybə çəkilməmək mümkün deyil. Bu əsərdə həzinliyin gerçək səbəbi bizə olduqca əlçatmaz görünən, uzaq mənzərənin sonsuz qüdrətidir. Rəssamın cəsarətli və isti rəng seçimi "ərköyün" Xəzərin xarakterinə, Bakının sübh çağına çox uyğundur. Gerçəkliklə təxəyyülün sintezindən yaranan kompozisiya girintili, tünd və qarışmayan rənglərdəki fakturalar vasitəsilə rəssamın daxili aləmindəki həzin hissləri özündə əks etdirə bilir.

Hafiz Məmmədovun professional və nümunəvi səciyyəyə malik yaradıcılıq dünyası kamil kompozisiya quruluşu, obraz yaradıcılığı və zövqlü kolorit həlli ilə milli rəngkarlığımızda əhəmiyyətli yer tutur. Sənətkarın kətan üzərinə köçürdüyü "Qırılmış ümidlər" adlı tablosu olduqca həssas və melanxolik atmosferə malikdir. Əsərin əsas qəhrəmanı tənha və dalğın görünən skripka ifaçısıdır. Melanxolik görünən fiqura küçə musiqiçisi deməkdə tərəddüd edirik. Rəssam boz rəngin qeyri-müəyyən intensivliyindən məharətlə istifadə edib.



Realizmlə çağdaş sənətin vəhdətindən bəhrələnən rəssam Natiq Fərəcullazadə yaradıcılığı melanxolik obrazlara xüsusi diqqətlə yer verən sənətkarlar arasındadır. Onun estetik və zövqlü kolorit həlli ilə seçilən əsərləri arasında "İstedad" tablosu xüsusilə fərqlənir. Rəssamın hər zaman istifadə etdiyi stilizə metodu bu əsərdə də harmonik bir şəkildə tətbiq olunub. Obrazın simasındakı kədərlə həmin kədərdən qalan boşluq rəssamın qeyri-adi təqdimatında xüsusi xarakterə bürünür. Burada rəssam istedadın, marağın basdırılması ilə daxili dünyalarda yaranan yeri doldurula bilməyən çarəsizliyi təsvir etmək istəyib.

Çoxşaxəli yaradıcılıq fəaliyyətinə malik peşəkar kino rəssamı Elbəy Rzaquliyevin "Axşam" isimli peyzaj əsəri olduqca təsirlidir. İsti



tonlardan ibarət palitranın payız sayağı ifadə tərzi və tək qalan, qurumağa məhkum olan qocaman ağac... Heyrətamiz rəng müxtəlifliyi və rəssamın təxəyyülündəki həssas dünyanı təmsil edən axıcı fırça vuruşları melanxolik baxışın tamamilə fərqli formasını özündə ehtiva edir. Narıncı və qəhvəyi tonların üstünlük təşkil etdiyi bu mənzərədə biz olduqca tutqun, emosional ifadə tərzi ilə üz-üzə gəlirik. Bu harmonik rəng düzümü izləyiciləri daha dərin, daha həzin hisslərə dəvət edir.

Rəssam Qafar Sarıvəllinin "Aşıq Ədalətin Kərəm yanğısı" əsərində obrazın melanxolik və bir o qədər də ehtiraslı simasını görürük. Bu əsəri daha da əhəmiyyətli edən bir məqam melanxolik həzinliyin təkcə bədbəxtlik, acizlik və itkidən ibarət olmadığını vurğulamasıdır. Bu təsvirin istinad olunduğu hadisə itkidən, faciədən, kədərdən doğulan yanğı yüklü bir bəstənin ərsəyə gəliş səbəbidir.

Rəngkarlıqla yanaşı, heykəltəraşlıqda da müraciət olunan melanxolik duyğu dəyişiklikləri maraq doğurur. Bu mənada usta sənətkar Fazil Nəcəfovun yığcam, dəqiq və müasir formaya sahib "Əzab" adlı plastika nümunəsinin adını çəkə bilərik. İlk baxışdan, sənətkarın xüsusilə qabartmağa çalışdığı emosiya, dəhşətli melanxoliya özünü büruzə verir. Obrazın gərgin duruşu, axıcı plastik həlli və emosional coşqunluğu təqdirəlayiqdir.

Bir başqa nümunə görkəmli heykəltəraş Cəlal Qaryağdının "Habil Əliyev, kamança ustası" əsəridir. Həzin və melanxolik hissləri baxışlarından süzülən böyük sənətkarın heykəlinə baxdığımız zaman sanki arxa fonda "Segah" təsnifinin könüllərə toxunan əsrarəngiz melodiyası səslənir. Kamançası dil açanda sanki dünya ilə dərdləşən Habil Əliyevin vətən həsrəti hər zaman gözlərindən oxunurdu...

Heykəltəraş Xanlar Əhmədovun "Leyli və Məcnun" adlı əl işi faciəvi eşq macərasının melanxolik duyğularını özündə daşıyan diqqətəlayiq nümunələrdəndir. Bu heykəl bir tərəfdən də ülvi eşqin simvolu kimi qiymətləndirilə bilər.

Son olaraq qeyd edək ki, melanxolik elementlər və simvollar daşıyan sənət nümunələri incəsənətə forma və məzmun baxımından gətirdiyi həssaslıq və individuallıqla hər bir sənətkarı daha yaxından tanımağa, yaradıcılığını daha dəqiq dərk etməyə imkan yaradan önəmli bir anlayışdır.

**Nigar Hətəmova**
**Azərbaycan Dövlət Rəsm Qalereyasının kiçik elmi işçisi**

## Xatirə təqvimi — 22-25 oktyabr

### Azərbaycan

**22 oktyabr 1919** – Bəstəkar Ərtoğrol Cavid (Rasizadə; 1919 – 14.10.1943) anadan olub. Böyük şair-dramaturq Hüseyn Cavidin oğludur. Romans və mahnılar bəstələyib. Azərbaycan xalq mahnılarını nota köçürüb.

**22 oktyabr 1920** – Nasir Məmməd Aranlı (Məmməd Salman oğlu Ağayev; 1920-1950) Ağcabədidə anadan olub.

**22 oktyabr 1921** – Azərbaycan xalçaçılıq sənətinin görkəmli nümayəndəsi, Xalq rəssamı Kamil Müseyib oğlu Əliyev (1921 – 1.3.2005) İrəvan şəhərində doğulub. "Füzuli", "Nəsimi", "Nizami" portret-xalçalarının müəllifidir.

**22 oktyabr 1929** – Tanınmış filosof, akademik Fuad Feyzulla oğlu Qasımzadə (1929 – 3.8. 2010) Bakıda doğulub. Böyük mütəfəkkir şair M.Füzulinin fəlsəfi dünyagörüşü ilə bağlı tədqiqatların müəllifidir.

**22 oktyabr 1940** – Tərcüməçi, publisist, Əməkdar jurnalist Mailə Balabəy qızı Muradxanlı (1940-2010) Salyan şəhərində anadan olub.

**22 oktyabr 1970** – Azərbaycanda kukla teatrının yaradıcılarından biri, aktyor, rejissor Molla Ağa Bəbirli (15.9.1905 – 1970) vəfat edib.

**22 oktyabr 1990** – Əməkdar artist Narınc Murad qızı Məlikova (1917–1990) vəfat edib. Füzuli və Ağdam teatrlarında aktrisa kimi fəaliyyət göstərib.

**22 oktyabr 2020** – Əməkdar mədəniyyət işçisi, şair İsmayıl Cabir oğlu Dadaşov (23.3.1957 – 2020) vəfat edib. "Azərbaycanfilm"də musiqi redaktoru işləyib.

**22 oktyabr 2021** – Xalq artisti, xanəndə Canəli Xanəli oğlu Əkbərov (10.3.1940 – 2021) vəfat edib.

**23 oktyabr 1940** – Azərbaycan Rəssamlar İttifaqının birinci (təsis) qurultayı işə başlayıb. Qurultay oktyabrın 25-dək davam edib. Əməkdar incəsənət xadimi İsmayıl Axundov yaradıcı ittifaqın ilk sədri seçilib.

**23 oktyabr 1953** – Tanınmış xanəndə Səxavət Əmirxan oğlu Məmmədov (1953 – 30.9.1991) Ağdam rayonunun Abdal-Gülablı kəndində doğulub. Xalq mahnıları, muğam və təsniflərin mahir ifaçısı olub. Avtomobil qəzasında dünyasını dəyişib.

**24 oktyabr 1882** – Böyük şair-dramaturq Hüseyn Cavid (Hüseyn Abdulla oğlu Rasizadə; 1882 – 5.12.1941) Naxçıvanda anadan olub. Azərbaycan ədəbiyyatında ilk mənzum dramların, tarixi-fəlsəfi pyeslərin ("İblis", "Topal Teymur", "Şeyx Sənan", "Xəyyam" və s.) müəllifidir. 1938-ci ildə repressiya olunub, 1941-ci ildə Sibirdə sürgündə vəfat edib. 1982-ci ildə ulu öndər Heydər Əliyevin təşəbbüsü ilə nəşi Vətənə gətirilərək Naxçıvanda dəfn olunub.

**24 oktyabr 1923** – Tanınmış aktyor Dadaş Nadir oğlu Kazımov (1923-1992) Bakıda doğulub. 1956-cı ildən Musiqili Komediya Teatrında çalışıb, filmlərdə çəkilib.

**24 oktyabr 1928** – Xalq artisti, bəstəkar İbrahim Qurban oğlu Məmmədov (1928-1993) Bakıda doğulub. Müxtəlif janrlarda əsərlərin, uşaqlar üçün "Tülkü və Alabaş" opera-baletinin müəllifidir. Azərbaycan Dövlət Konservatoriyasının professoru olub.

**24 oktyabr 1929** – Musiqişünas, sənətşünaslıq namizədi, Əməkdar müəllim Solmaz Cəlal qızı Qasımova (1929-2016) Bakıda doğulub. Bakı Musiqi Akademiyasının professoru olub.

**24 oktyabr 1929** – Ədəbiyyatşünas alim, professor Şəmistan Abdu oğlu Mikayılov (1929-2018) Gürcüstanın Bolnisi rayonunun Faxralı kəndində doğulub. Ədəbiyyat dərsliklərinin müəllifidir.

**24 oktyabr 1931** – Əməkdar mədəniyyət işçisi Rimma Əli qızı Abdullayeva (1931-2017) Ağdam rayonunda doğulub. "Azərbaycanfilm" Kinostudiyasında film direktoru vəzifəsində işləyib.

**24 oktyabr 1993** – Xalq artisti, ustad xanəndə, qəzəlxan-şair Hacıbaba Hüseynəli oğlu Hüseynov (15.3.1919 – 1993) vəfat edib.

**25 oktyabr 1907** – Ədəbiyyatşünas, filologiya elmləri doktoru, professor Mirzəağa Yüzbaşı oğlu Quluzadə (1907-1979) anadan olub. 50-ci illərdə Azərbaycan EA-nın Ədəbiyyat və Dil İnstitutunun direktoru işləyib.

**25 oktyabr 1911** – Biblioqraf, ədəbiyyatşünas, pedaqoq Əliheydər Bala oğlu Qəhrəmanov (1911–1959) anadan olub.

**25 oktyabr 1912** – Xalq rəssamı Bədurə Məlik qızı Əfqanlı (Ağamalova; 1912 – 6.5.2002) anadan olub. Akademik Milli Dram Teatrında, "Azərbaycanfilm" Kinostudiyasında ("Dəli Kür", "Dədə Qorqud" və s. filmlər) geyim üzrə rəssam işləyib.

**25 oktyabr 1921** – Görkəmli aktrisa, Xalq artisti Nəcibə Haşım qızı Məlikova (1921 – 6.7.1992) anadan olub. Gəncə teatrında, 1952-ci ildən Akademik Dram Teatrında çalışıb. "Ögey ana", "Aygün", "Əhməd haradadır?", "Arşın mal alan" (1965) filmlərində yaddaqalan obrazlar yaradıb.

**25 oktyabr 1925** – Yazıçı, tarixçi, şərqşünas Əbdül Ənbiyə oğlu Hüseynov (1925 – 14.5.2017) Bakının Əmircan kəndində doğulub. Türkmənistan mədəniyyət nazirinin müavini olub. 1960-cı ildən Moskvada yaşayıb. "İslam dünyasının cəngavəri", "Üsyankar Xaqani" və s. tarixi romanların müəllifidir.

**25 oktyabr 1930** – Xalq rəssamı, qrafik Elmira Həbibulla qızı Şahtaxtinskaya (1930 – 13.10.1996) Bakıda anadan olub. "Azərbaycan qədim mədəniyyət diyarıdır" plakatlar silsiləsi, "Novruz bayramı" tablosu və s. əsərlərin müəllifidir.

**25 oktyabr 1935** – Qəzəlxan şair Hacı Mail (Mail İsmayıl oğlu Əliyev; 1935 – 22.8.1999) anadan olub.

**25 oktyabr 1954** – Görkəmli aktyor, SSRİ Xalq artisti Mirzəağa Əli oğlu Əliyev (1883-1954) vəfat edib. 1919-cu ildən Azərbaycan Dövlət Dram Teatrında çalışıb. Bakı Tənqid-Təbliğ Teatrının təşkilatçılarından olub. "Hacı Qara", "Almaz", "Bakının işıqları" və s. filmlərdə çəkilib.

**25 oktyabr 1965** – Əməkdar incəsənət xadimi, tanınmış rəssam Vəcihə Əli qızı Səmədova (1924–1965) vəfat edib. Əsərləri: "Toy günü", "Nişan aparanlar", "Kür qırağında" və s.

**25 oktyabr 2008** – Dünya şöhrətli müğənni və bəstəkar, Azərbaycanın və SSRİ-nin Xalq artisti Müslüm Maqomayev (17.8.1942 – 2008) vəfat edib. Azərbaycan Dövlət Konservatoriyasını bitirib. Beynəlxalq müsabiqələrin qalibi olub. Bakıda, Fəxri xiyabanda dəfn olunub.

### Dünya

**22 oktyabr 1811** – Macar bəstəkarı Ferens List (Ferenc Liszt; 1811 – 31.7.1886) anadan olub. Məşhur əsərləri: "Faust" simfoniyası, "Macar" rapsodiyası, "Prelüdlər".

**22 oktyabr 1870** – Rus yazıçısı, ədəbiyyat üzrə Nobel mükafatı laureatı (1933) İvan Alekseyeviç Bunin (1870 – 8.11.1953) anadan olub.

**22 oktyabr 1919** – İngilis yazıçısı, ədəbiyyat üzrə Nobel mükafatı laureatı (2007) Doris Lessinq (Doris Lessing; 1919 – 17.11.2013) İranın Kirmanşah şəhərində doğulub. Atası İranda ingilis ordusunun zabiti olub.

**23 oktyabr 1920** – İtalyan uşaq yazarı Canni Rodari (Gianni Rodari; 1920-1980) anadan olub. "Çipollinonun sərgüzəştləri" əsəri ilə məşhurlaşıb.

**23 oktyabr 1844** – Alman rəssamı Vilhelm Leybl (Wilhelm Maria Hubertus Leibl; 1844-1900) anadan olub.

**24 oktyabr 1882** – Macar bəstəkarı İmre Kalman (1882-1953) anadan olub. "Silva", "Sirk şahzadəsi", "Monmartrın bənövşəsi" operettalarının müəllifidir.

**24 oktyabr 1911** – Məşhur rus aktyoru, rejissor, SSRİ Xalq artisti Arkadi İssakoviç Raykin (1911-1987) anadan olub.

**25 oktyabr 1838** – Fransız bəstəkarı Jorj Bize (Alexandre-Cesar-Leopold Bizet; 1838 - 3.6.1875) anadan olub. Operaları: "Karmen", "Camile", "Mərcan axtaranlar" və s.

**25 oktyabr 1864** – Qırğız milli ədəbiyyatının banilərindən biri, şair, aşıq Toktoqul Satılqanov (1864-1933) anadan olub.

**25 oktyabr 1881** – İspan rəssamı, heykəltəraş Pablo Pikasso (Pablo Ruiz Picasso; 1881 - 8.4.1973) anadan olub.

**25 oktyabr 1894** – XX əsr türk xalq poeziyasının ustadı Aşıq Veysəl (Veysəl Satıroğlu; 1894 - 21.03.1973) Sivasda doğulub.

**Hazırladı: Vüqar Orxan**

# 7-ci Türk Dünyası Sənədli Film Festivalının mükafatları təqdim edilib

## Rejissor Oqtay Mir Qasım festivalın "Şərəf mükafatı" ilə təltif olunub




Türk Dünyası Jurnalistlər Federasiyası və Türk Dünyası Mədəniyyət, İncəsənət və Kino Fondunun birgə layihəsi olan və "Fikirdə birlik" şüarı ilə keçirilən 7-ci Türk Dünyası Sənədli Film Festivalına yekun vurulub. Türkiyə Mədəniyyət və Turizm Nazirliyi və Türk Dünyası Bələdiyyələr Birliyinin də dəstək verdiyi ənənəvi festivalın qala-gecəsi oktyabrın 13-də İstanbulda Haliç Universitetinin konfrans salonunda gerçəkləşib.

Bu il "Türk mədəniyyəti və dünyaya türk baxışı" mövzusu ilə düzənlənən festivala 23 ölkədən 260 film qatılıb. İlkin qiymətləndirmədən sonra "Tələbə" və "Peşəkar" kateqoriyalarında seçimlər aparılıb. Finala ümumilikdə 16 sənədli film vəsiqə qazanıb. Yekunda münsiflər heyətinin müəyyən etdiyi sıralamaya əsasən mükafatlar sahiblərinə təqdim edilib.



Festivalın qalibləri ilə yanaşı, Türk dünyasında mədəniyyət və incəsənətə xidmətlərinə görə bir sıra yaradıcı insanlar xüsusi mükafatlara layiq görülüb. Onlar arasında Azərbaycanın tanınmış kinorejissoru, Xalq artisti Oqtay Mir Qasım da var. Kinorejissora "Türk dünyası ömür boyu Şərəf mükafatı" təqdim edilib.

"Tələbə" kateqoriyası üzrə Qırğızıstandan rejissor Sayır Bakıtbekovanın "Körpü" sənədli filmi birinci yerə layiq görülüb. Eyni kateqoriyada türkiyəli rejissor Semih Saqmanın Əfqanıstanda bir dağ kəndində çəkdiyi "Gülab gül" filmi ikinci, müsabiqəyə Bosniya və Herseqovinadan qatılan rejissor Kadir Can Arabaçının "Üç ordu" sənədli filmi üçüncü yerə layiq görülüb.

"Peşəkar" kateqoriyada türkiyəli rejissor Volkan Ücenin "Hər şey daxil" sənədli filmi birinci yeri tutub. Eyni kateqoriyada yakutiyalı rejissor Sardaana Barabanovanın "Müharibə uşaqları" filmi ikinci, Türkiyədən rejissor Neslihan Semerçinin "Musiqili bir köç nağılı" filmi üçüncü mükafatı qazanıb.

Türk Dünyası Jurnalistlər Federasiyasının sədri, festivalın Təşkilat Komitəsinin rəhbəri Menderes Demir bildirib ki, artıq yeddinci dəfə gerçəkləşən layihənin məqsədi Türk dünyasına və mədəniyyətinə xidmətdir: "Müsabiqəyə də bu tipli filmləri qəbul edirik. Məqsədimiz türk mədəniyyətini geniş kütlələrin diqqətinə çatdırmaqdır. Festivalımıza Krım, Şərqi Türküstan və Kərkükdəki türk qardaşlarımızın problemləri, çətinlikləri, mədəniyyəti haqqında filmləri də qəbul edirik".

Qeyd olunub ki, festivalda iştirak edən və mükafat qazanan filmlər noyabrın sonuna qədər Türkiyə, Azərbaycan, Qazaxıstan, Qırğızıstan, Özbəkistan, Şimali Makedoniya, Bosniya və Herseqovina, Macarıstan və Şimali Kiprdə keçiriləcək müxtəlif tədbirlərdə nümayiş etdiriləcək.

**Mehparə Sultanova**
**Ankara**

# "Arşın mal alan"ı Tatarıstanda çox seviblər

Oktyabrın 28-də Tatarıstan Respublikasının (Rusiya Federasiyası) Almetyevsk şəhərində "Adımnar" kompleksinin səhnəsində Üzeyir Hacıbəylinin "Arşın mal alan" musiqili komediyası nümayiş etdiriləcək. Tamaşa rejissor, Rusiyanın Əməkdar incəsənət xadimi Mixail Borisovun quruluşunda göstəriləcək.

Bu barədə Tatarıstanın Leninoqorsk rayonundakı "Birlik" Azərbaycan milli-mədəni muxtariyyəti ictimai təşkilatı məlumat yayıb.

Belə bir tamaşa hazırlamaq ideyası mərhum Mixail Borisovun yetirmələri olan "Sozvezdiye-Yoldızlık" art-rezidensiyanın artistlərinə məxsusdur.

"Sozvezdiye-Yoldızlık" festivalının baş prodüseri, art-rezidensiyanın rəhbəri Dmitri Tumanov deyib: "Biz fəxr edirik ki, bu gənclər təhsili başa vurandan sonra vətənə qayıdıblar və öz respublikalarının firavanlaşmasına xidmət edirlər. Mixail Borisov özü onlara həmişə deyirdi: "Sizi həmişə qiymətləndirəcək və sevəcək insanların yanına qayıdın".



Gənclər bu dəstəyi, bu sevgini hiss edirlər, ona görə də belə təşəbbüskarlıq göstərirlər".

Qeyd olunub ki, art-rezidensiyanın artistləri Üzeyir Hacıbəylinin bu məşhur əsərinin qəhrəmanlarını kazanlı tamaşaçılara sevdiriblər və indi həmin tamaşanı Rusiyanın başqa şəhərlərində nümayiş etdirirlər.

# Həştərxanın Nərimanov rayonunda Maqomayevin büstü qoyulacaq

Rusiya Federasiyası Həştərxan vilayətinin qubernatoru İqor Babuşkinin tapşırığına əsasən, vilayətin Nərimanov şəhərində Müslüm Maqomayevin büstü qoyulacaq. Müvafiq qərarın Azərbaycan ilə Həştərxan arasında dostluq münasibətlərinin möhkəmləndirilməsi məqsədilə qəbul edildiyi bildirilir.

Məlumatda vurğulanır ki, 2022-ci ildə əfsanəvi azərbaycanlı müğənni və bəstəkar, öz səsi ilə milyonlarla dinləyicinin qəlbini fəth etmiş Müslüm Maqomayevin 80 illiyi qeyd edilir.

Hazırda Nərimanov şəhərində abidə üçün pyedestalın quraşdırılması ilə bağlı iş gedir. Sponsorlar və xeyriyyəçilər büstün büdcədənkənar vəsait hesabına qoyulması təşəbbüsünü dəstəkləyiblər. Büstün noyabrın 1-də açılması planlaşdırılır.

Qeyd edək ki, Həştərxan vilayətinin Nərimanov rayonu ilə Bakının Nərimanov rayonu arasında qardaşlaşma münasibətləri var.

# Sankt-Peterburq gələn il MDB-nin "Mədəniyyət paytaxtı" olacaq

Özbəkistanın Səmərqənd şəhərinin 2024-cü ildə MDB-nin "Mədəniyyət paytaxtı"na namizədliyi irəli sürülüb. Bu, ötən həftə (14 oktyabr) MDB-nin Astanada (Qazaxıstan) keçirilən sammitinin yekunlarına əsasən məlum olub.

Özbəkistan Prezidenti Şavkat Mirziyoyev sammitdə çıxışı zamanı MDB məkanında mədəni-humanitar sahədə əməkdaşlığı ən mühüm istiqamətlərindən biri kimi qiymətləndirib. O, Özbəkistanın təhsil, elm, səhiyyə, idman, mədəniyyət və incəsənət sahələrində gerçəkləşən birgə layihə və proqramları fəal şəkildə dəstəkləməyə hazır olduğunu bildirib.

İclasda "Birliyin mədəniyyət paytaxtları" Dövlətlərarası Proqramının gələn il üçün ev sahibi də elan edilib. 2023-cü ildə Rusiyanın Sankt-Peterburq şəhəri MDB-nin "Mədəniyyət paytaxtı" olacaq. Qeyd edək ki, gələn il Sankt-Peterburq şəhərinin əsasının qoyulmasının 320 illiyidir.

Xatırladaq ki, MDB-də "mədəniyyət paytaxtları" təşəbbüsü 2010-cu ildə irəli sürülüb və ilk dəfə 2011-ci ildə Rusiyanın Ulyanovsk və Belarusun Qomel şəhərləri bu ada layiq görülüb. 2012-ci ildə MDB dövlət başçılarının Aşqabad sammitində "Birliyin mədəniyyət paytaxtları" proqramı təsdiq olunub. Proqrama əsasən, sonrakı illərdə iki (bəzən üç) şəhər "paytaxt" adını qazanıb. 2015-ci ildən isə hər il, sadəcə, bir şəhərə bu ad verilir. Azərbaycandan 2013-cü ildə Qəbələ, 2017-ci ildə isə Gəncə şəhərləri MDB-nin "Mədəniyyət paytaxtı" olub.



Son üç ildə bu estafeti Qazaxıstanın Şımkent (2020), Tacikistanın Düşənbə (2021) və Qırğızıstanın Karakol (2022) şəhərləri qəbul edib.

**V.Kamal**

# Alimlər qara dəliyin yaranması anını müşahidə ediblər



ABŞ-ın Milli Aeronavtika və Kosmos İdarəsinin (NASA) Svift kosmik rəsədxanasının rentgen teleskopu massiv ulduzun kollapsı zamanı yaydığı siqnalları qeydə alıb.

Məlumatda bildirilir ki, svift rentgen teleskopu GRB 221009A adı verilən partlayışın ilk qeydindən təxminən bir saat sonra onun yaydığı şüalanmanı çəkib. Müşahidə olunan parlaq halqalar ulduz kollaps etdikdən sonra onun yaydığı şüalanmanın qalaktikadakı tozdan rentgen oblastında səpilməsi nəticəsində yaranır.

Qeyd edək ki, GRB 221009A adlı partlayış Oxatan bürcündə və Yerdən təxminən 1,9 milyard il məsafədə baş verib. Yaranmaqda olan qara dəlik işıq sürətinə yaxın sürətlə hərəkət edən zərrəcikləri bloklayaraq onların güclü axınını – jetləri yaradır. Bu jetlər kosmosa rentgen və qamma şüaları axını yayırlar. İlkin təhlillərə görə, partlayış analoji AT2018cow partlayışından 18 dəfə güclü olmaqla indiyə qədər müşahidə olunmuş ən güclü qamma şüalanmasıdır.

# Parisdəki Böyük Məscid 100 yaşında



Birinci Dünya müharibəsində həlak olmuş müsəlman əsgərlərə ehtiram olaraq tikilmiş Paris Böyük Məscidinin 100 illiyi qeyd edilib.

Birinci Dünya müharibəsi zamanı Fransa ordusu sıralarında 70 min müsəlman əsgər həlak olub. Onların fədakarlığına hörmət əlaməti olaraq 1920-ci ildə Parisdə məscid, kitabxana və konfrans zalı da daxil olmaqla Müsəlman İnstitutunun yaradılmasını nəzərdə tutan qanun layihəsi parlamentdə qəbul edilir. 1922-ci il oktyabrın 19-da hərbi sərkərdə və Fransanın Mərakeşdə müstəmləkəçiliyinin rəmzi siması olan marşal Uber Lyoteyin iştirakı ilə gələcək məscidin təməli qoyulur. Məscidin tikintisi 4 il davam edir və 1926-cı ildə rəsmi açılışı olur.

Oktyabrın 19-da Paris Böyük Məscidinin 100 iliyinə həsr edilmiş tədbir keçirilib. Prezident Emmanuel Makronun da qatıldığı mərasimdə məscidin önündə Fransa Respublikasının müsəlman əsgərlərə minnətdarlığını əks etdirən lövhə açılıb.

Xronoqraf

# Tarixdə bu gün

## Zamanın səhifələrində qalan olaylar, faktlar...

### 419 il əvvəl...

**21 oktyabr 1603-cü ildə** Təbrizdə Osmanlı hakimiyyəti əleyhinə üsyan başlayıb. Üsyandan istifadə edən Səfəvi hökmdarı I Şah Abbas qoşunları ilə Təbrizə daxil olaraq Osmanlı qüvvələrini şəhərdən çıxarıb. Səfəvi dövləti ilə Osmanlı imperatorluğu arasında növbəti müharibə (1603-1612) başlanıb. Osmanlı bundan öncəki müharibədə (1578-1590) qalib gələrək Şimali və Qərbi Azərbaycanı, həmçinin Cənubi Azərbaycanın bir hissəsini (Təbriz, Marağa) ələ keçirmişdi. Yeni müharibədə Səfəvilər üstün oldu və I Şah Abbas sələfi Məhəmməd Xudabəndənin itirdiyi torpaqları geri aldı.

### 217 il əvvəl...



**21 oktyabr 1805-ci ildə** İspaniya və Fransanın birləşmiş donanması ilə Böyük Britaniyanın dəniz qüvvələri arasında Trafalqar burnu yaxınlığında (İspaniyanın Atlantik okeanı sahillərində) böyük döyüş olub. İngilis admiralı Horatsio Nelsonun donanması ispan-fransız qüvvələrini darmadağın edib. Qarşı tərəfin 18 gəmisi batırılıb, 7 min nəfər döyüşçüsü həlak olub. İngilislərin itkisi 1700 nəfər idi. Admiral Nelson da döyüşdə həlak olub. Bu tarixi döyüş sayəsində Britaniya dünya okeanında hökmranlığı ələ aldı.

### 105 il əvvəl...

**22 oktyabr 1917-ci ildə** Bakı Fəhlə və Əsgər Deputatları Sovetinə seçkilər keçirilib. Seçkidə 40 faiz səs toplayan "Müsavat" partiyası qələbə qazanıb, ikinci yeri eserlər – "sosialist-inqilabçılar" (30 faiz) tutub. Seçkidə üçüncü (16 faiz) olan Şaumyanın başçılıq etdiyi bolşeviklər (Rusiya K(b)P-nin Bakı komitəsi) nəticələri tanımadılar. Petroqradda 25 oktyabr (7 noyabr) çevrilişindən (Müvəqqəti hökumətin devrilməsi) sonra Bakı bolşevikləri də zorakılıqla Bakı Sovetinin İcraiyyə Komitəsində yerlərin çoxunu ələ keçirdilər.

### 67 il əvvəl...

**23 oktyabr 1955-ci ildə** II Dünya müharibəsinədək Almaniyanın ərazisi olmuş Saar bölgəsinin müqəddəratı ilə bağlı yerli referendum keçirilib. Müharibədən sonra Saar Fransanın nəzarətinə keçmişdi, AFR isə bölgəni geri tələb edirdi. Referendumda əhalinin böyük əksəriyyəti bölgənin Almaniyaya qaytarılmasına səs verdi. Fransa referendumun nəticələrini tanıdı və zəngin kömür mədənləri olan bölgə Almaniyaya qaytarıldı.

### 66 il əvvəl...



**23 oktyabr 1956-cı ildə** Macarıstanda antisovet çıxışları (23 oktyabr – 4 noyabr) başlanıb. Aksiya iştirakçıları Macarıstanın "Varşava bloku"ndan çıxmasını, sosialist inkişaf yolundan əl çəkməsini tələb edirdilər. Çıxışlara rəhbərlik edən Macarıstan KP-nin islahatçı qanadının lideri İmre Had hökumətin başçısı seçildi. Moskvanın təlimatı ilə partiyada Yanoş Kadarın başçılıq etdiyi mühafizəkarlar hökuməti tanımadı və özləri "müvəqqəti hökumət" qurdular, sonra isə kömək üçün Moskvaya müraciət etdilər. SSRİ və "Varşava bloku" ölkələrinin hərbi kontingenti Budapeştə yeridildi, "antiinqilabi qiyam" yatırıldı.

### 49 il əvvəl...

**23 oktyabr 1973-cü ildə** növbəti Ərəb-İsrail müharibəsi başa çatıb. 1967-ci ildəki "Altıgünlük müharibə"də (5-10 iyun) məğlubiyyətin əvəzini çıxmağa çalışan ərəb dövlətləri koalisiyası istəyinə nail ola bilməyib. Üstəlik, bu savaşda İsrail qoşunları Suriyanın strateji əhəmiyyətli Qolan təpələrini (paytaxt Dəməşqin 50 kilometrliyində) ələ keçiriblər.

### 35 il əvvəl...

**21 oktyabr 1987-ci ildə** Heydər Əliyev Sov.İKP MK-nın Baş katibi Mixail Qorbaçovun təzyiqi ilə SSRİ rəhbərliyindən istefa verib. Sov.İKP MK-nın plenumunda Heydər Əliyevin partiyanın ali orqanından – Siyasi Büro üzvlüyündən istefası qəbul olunub. Ertəsi gün Heydər Əliyev SSRİ Nazirlər Soveti sədrinin 1-ci müavini vəzifəsindən də istefa verdi. Heydər Əliyevin SSRİ rəhbərliyindən kənarlaşdırılmasından dərhal sonra ermənilər M.Qorbaçovun xeyir-duası ilə Qarabağ avantürasına start verdilər.

### 29 il əvvəl...

**21 oktyabr 1993-cü ildə** Azərbaycan Respublikası ilə Braziliya (ölkəmizin müstəqilliyini 1991-ci il dekabrın 26-da tanıyıb) arasında diplomatik münasibətlər qurulub.

### 20 il əvvəl...

**22 oktyabr 2002-ci ildə** Azərbaycanın Xəzər Dəniz Gəmiçiliyi İdarəsinin "Merkuri-2" gəmi-bərəsi Bakının 130 kilometrliyində qəzaya uğrayaraq batıb. Bərədə olan 51 nəfərdən yalnız 9 nəfəri xilas etmək mümkün olub. Bu, Azərbaycanın gəmi nəqliyyatı tarixində ən böyük qəza idi.

**Hazırladı: V.Orxan**

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin nəşri

MƏDƏNİYYƏT

Qəzet 1991-ci ilin yanvarından çıxır

**Baş redaktor:** Vüqar Əliyev

**Ünvan:** AZ 1012, Bakı şəhəri, Moskva prospekti 1D
Dövlət Film Fondu, 5-ci mərtəbə

**Telefon:** (012) 431-28-79 (baş redaktorun müavini)
431-57-72 (redaktor)
430-16-79 (müxbirlər)
530-34-38 (mühasibatlıq, yayım)
**E-mail:** qazet@medeniyyet.az
**Lisenziya №** AB 022279. **İndeks:** 0187. **Qiyməti:** 60 qəpik

"Mədəniyyət" qəzetinin kompüter mərkəzində səhifələnib,
"Azərbaycan" nəşriyyatında çap olunub.
**Tiraj:** 5072. **Sifariş:** 3025
**Buraxılışa məsul:** Fariz Yunisli

Yazılardakı faktlara görə müəlliflər cavabdehdir.
Qəzetdə AZƏRTAC-ın materiallarından da istifadə edilir.

**Bank rekvizitləri:**
Kapitalbank 1 saylı Yasamal filialı
**Kod:** 200037. **VÖEN:** 9900003611. **SWIFT:** AIIBAZ2XXXX
**Müxbir hesab:** AZ37NABZ01350100000000001944

MADANIYYAT QAZETI REDAKSIYASI
**H/Hesab:** AZ98AIIB33080019443300232103. **VÖEN:** 1300338641